**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**“Müasir şəraitdə ölkənin sosial-iqtisadi təhlükəsizliyi və onun təmin olunması” mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Məlikov Murad Namiq**

**BAKI-2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-nın direktoru**

**i.ü.f.d. dos Əhmədov Fariz Saleh**

**____________ imza**

**“__”________ 2019-cu il**

**Müasir şəraitdə ölkənin sosial-iqtisadi təhlükəsizliyi və onun təmin olunması**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060404 “İqtisadiyyat”**

**İxtisaslaşma: İqtisadi nəzəriyyə**

**Qrup: 10**

**Magistrant**

**Məlikov Murad Namiq**

**___________________imza**

**Elmi rəhbər**

**i.ü.f.d.,b.m. Nəcəfova Kəmalə Akif**

**___________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d.,b.m. Hümbətova Suqra İnqilab**

**___________________imza**

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**___________________imza**

**BAKI-2019**

**Social-economic safety of the country and its supply in modern contribution**

**Summary**

**The relevance of the research: After the transition to the information society, the importance of economic security in the national security of the countries has increased.**
**Purpose and objectives of my research: to provide the socio-economic security of our country in the modern conditions, as well as to analyze the conditions of economic safety in the conditions of sustainable economic development of the Republic of Azerbaijan and to investigate the current situation. to determine the direction of development in this direction.**
**Research methods used: during the study of my dissertation, generalization, statistical analysis, comparisons, analysis, synthesis methods were used.**
**Research data base: Different literature, statistical data, materials of the Cabinet of Ministers, State Statistical Committee, internet sites and other funds were used in accordance with the subject.**
**Research restriction: lack of data on the strategic road map of the current year and state programs of the current year**
**Research results: which allowed us to analyze the positive and negative aspects of the country's economic security and economic development.**
**The scientific and practical significance of the results: The issues highlighted in my research work can be applied to the implementation of various programs of economic security and to economic security recommendations in our country.**
**Key words: economic security, economic development, purchasing power parity, human development index, human development index.**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **İİİ** | İnsan inkişafı indeksi |
| **KOS** | Kiçik və orta sahibkarlıq subyektləri |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **ÜDM** | Ümumi daxili məhsul |
| **ÜMG** | Ümumi milli məhsul |
| **ÜTT** | Ümumdünya ticarət təşklatı |
| **BVF** | Beynəlxalq Valyuta fondu |

## MÜNDƏRİCAT

**GİRİŞ................................................................................................................... 4**

**I Fəsil İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ ............................................................................................. 6**

1.1.İqtisadi təhlükəsizliyin məzmunu və nəzəri-metodoloji əsasları...................... 6

1.2.Qloballaşma şəraitində dövlətin iqtisadi təhlükəsizlik strategiyası və onun reallaşması xüsusiyyətləri ......................................................................... 13

1.3.İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin milli iqtisadi inkişaf modelinin rolu ....................................................................................... 24

**II Fəsil SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI VƏ QORUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ ................................................. 32**

2.1.Ölkənin sosial-iqtisadi təhlükəsizlik strategiyasında iqtisadi təhlükəsizliyinin göstəricilər sistemi................................................................................ 32

2.2.Sosial-iqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin vahid sosial siyasətinin əsas meyarları....................................................................... 37

2.3.Sosial-iqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin struktur siyasətinin əsas istiqamətləri.................................................................... 41

**III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ BU SAHƏDƏ DÜNYA TƏCRÜBƏSİ........................................................................... 46**

3.1.Qloballaşma şəraitində Azərbaycan Respublikasında sosial-iqtisadi təhlükəsizliyin təminatının təkmilləşdirilməsi istiqamətləri................................ 46

3.2.Azərbaycan Respublikasında sosial iqtisadi təhlükəsizliyin təmin olunmasının dünya təcrübəsi........................................................................................ 50

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 62**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT............................................................ 65**

Cədvəllərin siyahısı......................................................................................... 67

Şəkillərin siyahısı ........................................................................................... 67

Qrafiklərin siyahısı.......................................................................................... 67

Diaqramların siyahısı ...................................................................................... 68

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir dövrdə dünya iqtisadiyyatının bir tərəfdən qloballaşdığı, digər tərəfdən isə sürətlə qütbləşmə bir şəraitdə hər bir dövlətin qarşısında dayanan əsas problemlərin həlli kimi ölkələrin iqtisadi inkişaf səviyyəsi və iqtisadi təhlükəsizliyin təmin olunmasından asılıdır. İqtisadi təhlükəsizliyin milli iqtisadiyyatda səmərəli, dinamik yüksəlişi və cəmiyyətin tələbatlarını ödəyə bilməsi nöqteyi nəzərindən vacibliyi tədqiqat işimi daha da aktuallaşdırır. Həmçinin yoxsulluq və işsizlik səviyyəsinin aşağı düşürülməsinə, iqtisadi inkişafın təmin olunmasına da iqtisadi təhlükəsizliyin təsiri vardır. Bu istiqamətlərdə də dövlət proqramlarının və islahatlarının aparıldığı məlumdur. Bütün bu amillərə əsasən qeyd edə bilərik ki, tədqiqat işim olduqca aktualdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Respublikamızın sosial-iqtisadi iqtisadi təhlükəsizliyi araşdırılmış və dəyişən iqtisadi şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunması üçün təkliflər verilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri:** Tədqiqat işimin məqsədini müasir şəraitdə ölkəmizin sosial-iqtisadi təhlükəsizliyinin təmin olunması, həmçinin Azərbaycan Respublikasının davamlı iqtisadi inkişafın təmin olunması şəraitində iqtisadi təhlükəsizliyin qorunması şərtləri təhlil edilməsi və bu istiqamətdə fəaliyyətin müasir vəziyyətinin araşdırılması və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi təşkil edir.

Sadaladığımız bu məqsədlərə uyğun müəyyən vəzifələrin yerinə yetirilməsi zərurəti yaranır ki, bunlar aşağıdakılardan ibarətdir:

- İqtisadi təhlükəsizliyin mahiyyətini və nəzəri əsaslarının öyrənilməsi ;
- Sosial iqtisadi təhlükəsizliyin təmin olunması və onun qorunmasının əsas istiqamətləri;
- Azərbaycanda sosial iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar vahid dövlət siyasətinin əsas meyarları;
- Müasir dövrdə sosial iqtisadi təhlükəsizliyin təmin olunmasının təkmilləşdirilməsi istiqamətləri;

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqat işimin obyektini müasir şəraitdə sosial iqtisadi təhlükəsizlik problemi və Azərbaycanda iqtisadi təhlükəsizliyin qorunması və möhkəmləndirilməsidir. Predmetini isə sosial təhlükəsizliyin və iqtisadiyyatın təhlükəsizliyinin təminilə bağlı milli iqtisadi təhlükəsizlik sisteminin formalaşmasının və eləcə də bu istiqamətdə nəzəri metodoloji və əməli məsələlərin tədqiqi təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya işimin tədqiqi zamanı ümumiləşdirmə, statistik təhlil, müqayisə, analiz, sintez metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Mövzuya uyğun olaraq müxtəlif ədəbiyyatlardan, statistik göstəricilərdən, Nazirlər Kabinetinin, Dövlət Statistika Komitəsinin materiallarından, internet saytlarından və digər vəsaitlərdən istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Respublikamızın sosial-iqtisadi təhlükəsizliyinin təmini ilə bağlı tətbiq olunan dövlət proqramlarının statistik məlumatlarının əlçatan olması və xarici informasiya vasitələrində kifayət qədər informasiyanın olması səbəbi ilə bir məhdudiyytlə qarşılaşılmamışdır.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:**Tədqiqat işimin praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqat işimdə əks olunan məsələlər ölkəmizdə iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı həyata keçirilən tədbirlərdə, iqtisadi təhlükəsizliklə bağlı müxtəlif proqram təklif və tövsiyələrin hazırlanmasında tətbiq edilə bilər.

**Dissertasiya işinin strukturu və həcmi**. Yazdığım dissertasiya giriş hissədən, 3 fəsil, nəticə, həmçinin, ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işinin ümumilikdə ölçüsü 71 səhifədən, 9 cədvəldən, 4 şəkildən, 7 qrafik, 2 diaqram və 20 adda ədəbiyyatdan istifadə edilmişdir.

# I Fəsil İQTİSADİ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ-METODOLOJİ MƏSƏLƏLƏRİ

## 1.1. İqtisadi təhlükəsizliyin məzmunu və nəzəri-metodoloji əsasları

Günümüzdə bütün ölkələrin qarşısında dayanan prioritet vəzifələrdən biri iqtisadi təhlükəsizliyin təmin olunmasıdır. Çünki, qloballaşan dünyada siyasi və iqtisadi rəqabətin gücləndiyi zamanda iqtisadi təhlükəsizliyin əhəmiyyəti və aktuallığı yüksəlməkdədir. Buna müvafiq olaraq tarixi dövr ərzində iqtisadi təhlükəsizliyin nəzəri metodoloji əsaslarına və bu anlayışın məzmunununa nəzər salaq.

Monetarizm: Bir anlayış olaraq milli iqtisadiyyatın təhlükəsizliyi ilə bağlı hələ qədim zamanlarda monetarist konsepsiyası üzrə bir sıra məsələlər şərh edilmişdir. Monetarizm dövlətin iqtisadi proseslərə müdaxiləsinin əleyhinə olmaq ilə yanaşı, pulun ölkədə saxlanmasılə əlaqədar bir sıra tədbirlərin yerinə yetirilməsini təklif edirdi. Öz növbəsində bu da müəyyən səviyyədə ziddiyyətlər yaradardı. Bu nöqteyi nəzərdən monetarizm cərəyanı üzrə baxışlar daha çox pul yığmağa və ölkədən kənara çıxılmasının qarşısının alınmasına istiqamətlənmişdir. Həmçinin bu da iqtisadi təhlükəsizlik baxımından məqbul hesab edilmirdi. Pul kütləsinin artıqlığı iqtisadi təhlükəsizlik demək olmaması da bunun əsas səbəbidir. Pul kütləsinin artıq olması yalnız iqtisadi təhlükəsizliyin təmini nöqteyi nəzərdən müəyyən şəraiti hazırlayır və bu vəsaitlərdən effektiv formada istifadə olunması, iqtisadi təhlükəsizliyin təmin olunmasına münbit şərait ortaya çıxarır.

Keynçi məktəb: İqtisadi məktəblər daxilində xüsusilə seçilən nəzəriyyələrdən biri də keynçilik olmuşdur. Keyns dövlətlərdə baş verən müxtəlif iqtisadi hadisələri şərh edərək, kapitalist iqtisadiyyatının makroiqtisadi təhlilini vermişdir. O, əsas diqqətini iqtisadiyyatda baş verən qısamüddətli dəyişikliklərə istiqamətləndirmişdir. Keyns öz araşdırmalarında qeyd etmişdir ki, pul kütləsi nəinki qiymətlərin ümumi səviyyəsinə təsir edir, bununla birlikdə, işgüzarlığın aktivliyinə ciddi şəkildə təsir göstərərək cəmiyyətdə tələbin və gəlirlərin həcminin dinamikasını müəyyənləşdirir. Bazar münasibətlərini dəstəkləməkdən əlavə olaraq, o həm də bazarı tam olaraq

sərbəst buraxmağın tərəfdarı deyildi və bunun uğurlu nəticələrə səbəb olmayacağı şəklində bildirmişdir. Bu baxımdan o qeyd etmişdir ki, zəruri hallarda bazar münasibətlərinə dövlətin müdaxiləsi məqbul hesab edilir. Onun fikirləri iqtisadi təhlükəsizlik nöqteyi baxımından məqbul hesab edilir. Buna baxmayaraq burada da müəyyən təkmilləşməyə ehtiyac duyulduğu, onun tədqiqatlarının daha çox daxili iqtisadi siyasətlə əlaqədar olduğunu görə bilərik. Müxtəlif dövrlər ərzində istər iqtisadi məktəblərin, istərsə də müxtəlif tədqiqatçıların fikirləri və mülahizələrilə bağlı belə bir ümumi nəticəyə gələ bilərik, ölkənin iqtisadi təhlükəsizliyi ilə bağlı problemlərə və məsələlərə vahid yanaşma mövcud olmamışdır.

Dünya dövlətlərinin praktikasına isə təhlükəsizlik anlayışı XVII-XVIII əsrdə daxil olmuşdur. Xüsusilə keçən əsrin yetmişinci illərindən etibarən Qərb ədəbiyyatlarında milli təhlükəsizlik və iqtisadi təhlükəsizlik anlayışlarından geniş istifadə edilməyə başlanılmışdır. Buna müvafiq olaraq, yapon alimləri bu dövlətlərin milli təhlükəsizliyi və milli gücü üzrə əsas meyarları müəyyən etmişlər. Bu meyarlar isə aşağıdakılardır:

- Milli gücə və milli təhlükəsizliyə arxalanaraq beynəlxalq miqyasda milli maraqların reallaşdırılmasını təmin etmək,
- Milli gücün və milli təhlükəsizliyin beynəlxalq böhran və ekstremal şəraitdə davamlılığını təmin etmək,
- Dövlətlərin beynəlxalq miqyasda maliyyə, elmi texniki tərəqqidə və iqtisadi fəaliyyət üzrə xidmətini təmin etmək.

Bununla yanaşı qeyd etməliyik ki, milli təhlükəsizlik anlayışı qısa müddətərzində müasir cəmiyyətdə bir sıra ölkələrin xarici və daxilı siyasətinin ən əsas tərkib hissəsinə çevrilmişdir. XX əsrdən başlayaraq dövlət qrumları iqtisadi təhlükəsizlik vəziyyətinə nəzarət etməyə başlamış və milli təhlükəsizlik strategiyaları işləyib hazırlamışlar. Milli təhlükəsizlik ifadəsi iqtisadi təhlükəsizlik anlayışına nisbətən geniş olub, özündə maliyyə, sosial, ekoloji, təhlükəsizlikləri birləşdirir. Lakin buna baxmayaraq təhlükəsizliyi şərh edərkən, onun iqtisadi aspektlərini nəzərə almaq xüsusi əhəmiyyət kəsb edir. Bu nöqteyi nəzərindən

təhlükəsizliyi xarakterizə edən ən əsas elementlərdən biri isə dövlətlərin sosial iqtisadi, mədəni inkişafı arasındakı mövcud fərqlərdir və dəyişikliklərdir.

İqtisadi təhlükəsizlik anlayışı elmi ədəbiyyatlarda müxtəlif formalarda şərh edilmişdir. İqtisadi təhlükəsizlik V.A.Savinin fikrinə görə, hər bir dövlətin həyati maraqlarını müdafiə edən sistem formasında çıxış edir. O, yalnız dövlətlərin həyati maraqlarının müdafiəsi deyildir, bununla birlikdə bu maraqların təminatçısı və reallaşdırılması sistemi kimi də qiymətləndirilməlidir.

İ.A.Abalkin isə iqtisadi təhlükəsizlik anlayışını şərh edərkən bildirmişdir ki, iqtisadi təhlükəsizlik iqtisadi sistemin xüsusi bir halıdır, ona dinamik inkişaf etməyə və dövlət tərəfindən sərbəst iqtisadi siyasətin işlənməsi və qarşıya qoyulan bir sıra sosial məsələlərin həll edilməsi və reallaşdırılmasına şərait yaradır.

O.A.Belkova görə iqtisadi təhlükəsizlik dövlətin kənardan heç bir müdaxilə və təzyiqə məruz qalmadan öz inkişaf yolunu seçdiyi və müəyyən etdiyi bir haldır.

M.İ. Qvardeysev, V.A.Rozenberq iqtisadi təhlükəsizlik anlayışını iqtisadi sistem üzrə əhalinin normal yaşayış səviyyəsinin təmin edilməsi və eləcə də ölkənin milli dövlət maraqlarının ardıcıl olaraq reallaşdırılması qabiliyyətini müəyyən edən keyfiyyət əlaməti kimi dəyərləndirmişlər.

V.K.Senqeçov iqtisadi təhlükəsizliklə əlaqədar şərh edilən fikirlərdən fərqli olaraq bu anlayışı hansısa mücərrəd nəzəri konstruksiya kimi baxmağı məsləhət görmüşdir. Onun araşdırmalarına görə milli maraqların müdafiəsi, hakimiyyət institutlarının, yerli iqtisadiyyatın inkişafı və bununla birlikdə ilk milli maraqların reallaşması onun qorunması mexanizmlərinin yaradılması ilə təmin edilir. Bununla yanaşı o öz təcrübələrində iqtisadi təhlükəsizlik təhdidlərinə bir neçə amili aid etmişdir. Bunlara aşağıdakılardır.(Senqeçov V.K. 2008, s 78)

- Əhalinin yüksək yoxsulluq səviyyəsi
- Kapitalın azalması
- Pul dövriyyəsində kölgə iqtisadiyyatının yüksək payı
- İstehsal potensialının itirilməsi
- Məhsulun aşağı rəqabət qabiliyyətliyi

A. İllarionov isə bildirmişdir ki, iqtisadi təhlükəsizlik anlayışı, onun müxtəlif hüquqi və siyasi vəziyyətin elə formada qarşılıqlı uzlaşmasıdır ki, bu zaman uzun müddətli dövrdə daha effektiv üsullar ilə cəmiyyətin bütün şərtləri üzrə iqtisadi resursların maksimum miqdarının dayanıqlı istehsalı təmin olunur.

Bir sıra iqtisadi ədəbiyyatlarda iqtisadi təhlükəsizliyin mahiyyəti ilə bağlı verilən tərifləri 3 qrupda birləşdirirlər.(Məmmədov R. 2012, s 13)

- İqtisadi təhlükəsizlik anlayışının məzmunu bir sıra əlverişli nəticələrə cavabı olan iqtisadi vəziyyətlə eyniləşdirən təriflər
- İqtisadi təhlükəsizliyin məzmunu, onun məqsədlərinizi eyniləşdirən təriflər
- Geniş təkrar istehsalın dayanıqlığı kimi başa düşüldüyü təriflər

Hər bir qrupa uyğun formada bu anlayışın məzmunu və nəzəri metodoloji əsaslarını şərh edən iqtisadçılardan U.Senqeçov, Q.Quman və.s iqtisadi təhlükəsizliyi, ölkə iqtisadiyyatının ən vacib mənafelərini mühafizə edən termin kimi qəbul edirlər. 2-ci qrupun müəllifləri isə iqtisadi təhlükəsizliyi daha çox dövlətin daxilini və xaricini müxtəlif təhlükələrdən qoruyan şərtlərin toplusu kimi şərh etmişlər. Üçüncü qrupun müəllifləri isə (A.Qoçodeski, A.Arxipov və sair) bu anlayışa milli və beynəlxalq səviyyələr üzrə cəmiyyətin tələbatlarını təmin edən bir fəaliyyət növü kimi yanaşmışlar.

M.A.Əhmədov isə iqtisadi təhlükəsizlik anlayışının nəzəri əsaslarla şərh edərkən söyləmişdir ki, dünya iqtisadi sistemində müasir şəraitdə müşahidə edilən müxtəlif problemlər və sosial iqtisadi kataklizmaların yaranmasından asılı olaraq iqtisadi təhlükəsizlik zəruri tələbatların təmin edilməsi imkanına malik olması şəklində tədqiq edilməlidir. Bununla yanaşı o qeyd etmişdir ki, sadaladığımız elementlərlə yanaşı, o zaman iqtisadi təhlükəsizlik təmin olunur ki, ölkənin digər ölkələrdən asılılığı, əhalinin yaşam səviyyəsinin böyük ölçüdə aşağı düşməsi və ümumilikdə bir çox amillər üzrə göstəricilər müəyyən olunmuş minimum həddi ötüb keçməsin.

Hər bir dövlətin milli iqtisadiyyatının qarşısında dayanan prioritet məsələlərdən biri iqtisadi təhlükəsizliyin təmin olunması və iqtisadi təhlükəsizlik sisteminin

işlənib hazırlanmasıdır. Milli iqtisadi təhlükəsizlik məsələsinin ölkəmiz üçün də bu baxımdan əsas problem olduğunu tədqiq edən akademiklərdən biri də Z.Səmədzadə olmuşdur. Onun fikrincə, ölkə daxilində siyasi və iqtisadi sabitliyin təmin edildiyi bir şəraitdə xarici təhlükələrin azalma ehtimalı olduqca azdır. Belə ki, dünya ticarəti yeni qloballaşan dünyada elmi texniki tərəqqinin gətirdiyi inkişaf iqtisadi təhlükəsizlik məsələləri və bununla yanaşı meydana çıxan problemləri də mürəkkəbləşdirmişdir. O qeyd etmişdir ki, xüsusilə keçmiş ittifaq dövründə Azərbaycanda iqtisadi təhlükəsizlik daha çox mərkəzi büdcədən vəsait əldə etməyə əsaslanırdısa, müstəqillik əldə etdikdən sonra artıq mövcud resurslardan səmərəli şəkildə istifadəyə və dayanıqlı milli iqtisadiyyatın reallaşdırılması ilə əlaqədar prinsiplərə yönəlmişdir.

Nəhayət, iqtisadi təhlükəsizliklə bağlı söylənilən fikirlər prinsip olaraq bir-birindən fərqlənmirlər. Ümumi olaraq iqtisadi ədəbiyyatda milli iqtisadiyyatın təhlükəsizliyi termini cəmiyyətin 2 mühüm hissəsinin dövlət və bazarın birgə təhlükəsizliyin təmin edilməsi şəklində şərh edilmişdir.

İqtisadi təhlükəsizlik anlayışının mahiyyətinə bir sıra müəssisələrin kompleksi kimi yanaşılır. Bu məsələlər aşağıdakılardan ibarətdir :

- Dövlət suverenliyinin qorunub saxlanması;
- Ölkənin milli dövlət maraqlarının və məqsədlərinin tanınması;
- Ölkənin beynəlxalq mövqeyi, istehsalın ixtisaslaşması, dünya ticarətində yeri
- Vahid dövlət kimi özünü müdafiə və təkmilləşdirmə.

İqtisadi təhlükəsizliyin hüquqi təminatı ilə bağlı məsələlər özünün "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununda tapmışdır. Burada iqtisadi təhlükəsizliyin təmin edilməsilə əlaqədar bir çox məsələlər, bazar iqtisadiyyatını təmin edən maddi və təbii ehtiyatların mühafizəsi zamanı Azərbaycanın dünya və regional bazarlara inteqrasiyası kimi məsələlər şərh edilmişdir. İqtisadi təhlükəsizliyin təmin olunması üçün qanunvericiliyə iqtisadi sahədə təhdidlərlə əlaqədar ölkənin iqtisadi imkanlarının tükənməsi, boru kəmərlərinin, nəqliyyat sistemində fəaliyyətinin pozulması, ölkə iqtisadiyyatının

müasir dövrdə qloballaşan xarici ticarətdən xaric edilməsi kimi məsələlər daxil edilmişdir. Qeyd etdiyimiz amillər ilə bağlı olaraq deyə bilərik ki, xüsusilə belə bir zamanda iqtisadi təhlükəsizliyin təmin olunması dövlətin və cəmiyyətin sabit və səmərəli həyat fəaliyyətinin başlıca şərti kimi özünü göstərir. İqtisadiyyat dövlət və fərdlərin həyat əhəmiyyətli fəaliyyət istiqamətlərindən biridir. Buna görə milli təhlükəsizlik anlayışı və bu anlayışın bir parçası olan iqtisadi təhlükəsizlik anlayışının məzmunu və onun təmin olunması hər bir ölkənin xarici və daxili təhlükəyə qarşı dayanıqlığının artırılması və təminatının başlıca şərti kimi ortaya çıxır. İqtisadi təhlükəsizlik anlayışının mənasını daha aydın anlamaq üçün onun "dayanıqlıq" və "inkişaf" terminlərilə birlikdə izah etmək daha səmərəli və uyğun olardı.

Bildiyimiz kimi inkişaf iqtisadi təhlükəsizliyin əsas göstəricilərindən biridir. İstər iqtisadi təhlükəsizliyin, istərsə də dövlətlərdə baş verən bütün prosesləri eləcə də təhlükəsizliyin təmin edilməsi, bütün bunlar iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi ilə əlaqədardır. Əgər iqtisadiyyat inkişaf əldə olunmasa, daxili və xarici təhdidlərə uyğunlaşmaq və əhalinin tələbatının ödənilməsi və yaşamaq imkanları kəskin şəkildə azalar. Dayanıqlılıq isə öz-özlüyündə təhlükəsizlik ilə birbaşa qarşılıqlı əlaqədə olan bir sistem kimi iqtisadi təhlükəsizliyin əsas tərkibidir. Buna görə də dayanıqlıq və təhlükəsizliyi bir-biri ilə müqayisə etmək olmaz, bunların hər biri iqtisadiyyatın vəziyyətini müəyyən edir. İqtisadi təhlükəsizlik milli və dünya iqtisadiyyatı səviyyəsində ictimai tələbatların ödənilməsinin təmin olunması ilə bağlı amilləri özündə birləşdirir. Bununla bərabər ölkə daxilində və xarici bazarlarda yarana biləcək müxtəlif təhdidlər də bu təhlükələrlə əlaqədardır. İqtisadi təhlükəsizlik itkilərin minimumu endirilməsi və bununla birlikdə ölkə iqtisadiyyatının effektiv, dinamik inkişafının təmin olunması ilə bağlı bir çox xarici və daxili proseslərin toplusu qismində özünü göstərir.

İqtisadi təhlükəsizliklə bağlı ümumi fikirləri,nəzəri metodoloji əsasları ümumiləşdirərək dövlətimiz üçün iqtisadi təhlükəsizlik sisteminin əsas elementləri qismində aşağıdakıları sadalaya bilərik.

- Milli təhlükəsizlik sistemi :

1. Milli təhlükəsizliyin təmini
2. Dövlətimizin milli maraqları
3. Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi

• İqtisadi təhlükəsizliyin təhdidləri :

1. Ölkə iqtisadiyyatının başqa dövlətlərdən asılılığının yaranması
2. Ölkə iqtisadiyyatının təcrid edilməsi
3. İqtisadiyyatın qeyri mütənasib inkişafı
4. Ölkənin maliyyə və maddi vəsaitlərinin qanunsuz dövriyyəsi və ölkədən çıxarılması
5. Kapitalın azalması
6. Dövlət sisteminin pərakəndəliyi

•İqtisadi təhlükəsizliyə təsir edə biləcək iqtisadiyyat sahələri üzrə milli maraqlar.

1. Cəmiyyətin tələbatlarının ödənilməsi və xalqın yaşam səviyyəsinin yüksəldilməsi ilə əlaqədar dövlət tərəfindən reallaşdırılan sosial siyasət üzrə istehlak səbəti və qiymət indeksi siyasətinin düzgün aparılması
2. Xarici ticarətin səmərəliliyininartırılması
3. Qloballaşma vəziyyətində yüksək texnologiyanın yerli istehsalın inkişaf etdirilməsi ilə əlaqədar istehsal xərclərin azaldılması baxımından tətbiqi
4. İqtisadi potensialın çoxalması – dövlət tərəfindən sürətli qiymət siyasəti vasitəsilə səmərəliliyin artırılması
5. Daxili və xarici investisiyalar üçün əlverişli biznes mühitinin hazırlanması – iqtisadiyyatın müxtəlif sahələr üzrə investisiya qoyuluşları həyata keçirməsi baxımından investitorlara əlverişli zəminin yaradılması vasitəsilə qiymətlərin stimullaşdırıcı funksiyasının tətbiqindən istifadə olunmalıdır.
6. Ölkə iqtisadiyyatının inkişafı və iqtisadi sabitliyin təmin olunması və onun hüquqi əsaslarının tənzimlənməsi ilə bağlı tədbirlərin və siyasətlərin reallaşdırılması

### 1.2. Qloballaşma şəraitində dövlətin iqtisadi təhlükəsizlik strategiyası və onun reallaşması xüsusiyyətləri

Müasir dövrdə dünyada qloballaşma prosesinin gücləndiyi bir şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunması ən aktual mövzulardan biridir. Xüsusilə, beynəlxalq sfera üzrə yeni müstəqillik əldə etmiş suveren dövlətlərdə iqtisadi təhlükəsizliyin təmin olunması ən əsas prioritet məqsədlərdən biridir. Bu nöqteyi nəzərindən qloballaşan dünyada ölkələrin iqtisadi təhlükəsizliyinə təsir göstərən bir sıra amillərin nəzərdən keçirilməsi zəruri əhəmiyyət kəsb edir. Bunlara misal olaraq kapitalın,milli istehsalın və mübadilənin beynəlmilləşməsinin dərinləşməsi məsələlərini qeyd edə bilərik. Qloballaşma şəraitində Azərbaycan Respublikasında iqtisadi təhlükəsizliyin təmin olunması baxımından isə kapitalın beynəlxalq axınlardan mübadiləsi, ən son texnologiyalardan istehsalın, əmtəə və xidmətlərin yaradılmasında istifadəsi və bir sıra amillər iqtisadi təhlükəsizlik strategiyasında çox mühüm rol oynayır. Belə bir şəraitdə isə dünya ölkələrinin bir-birindən qarşılıqlı asılılığıhər gün daha da artır. Hər bir ölkənin milli iqtisadiyyatının inkişafı, bu qarşılıqlı asılılıq şəraitində digər ölkələrin inkişafı olmadan mümkünsüzdür.

İqtisadi təhlükəsizlik, ümumi milli təhlükəsizliyin tərkib hissəsi kimi çıxış edir. Milli təhlükəsizlik, daha geniş mənanı ifadə etməklə yanaşı, özündə informasiya, ekologiya, energetika və bir sıra təhlükəsizlik anlayışlarınıbirləşdirir. İqtisadi qloballaşmanın milli təhlükəsizliyin təmin olunması amili kimi bir neçə elementinə nəzər salaq.

- Transmillliləşdirmə;
- Dövlətin rolunun aşağı düşməsi;
- Vahid iqtisadi məkan və bununla birlikdə
    - müasir dövrdə istehsal güclərinin qloballaşması. İstehsal resurslarının beynəlxalq hərəkəti formasında çıxışı;
    - istehsalın beynəlmilləşməsi;
    - kapitalın beynəlmiləlləşməsi nəticəsində fond bazarının beynəlxalq hərəkətinin tezləşməsi;

- qloballaşan dünyada beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar maddi, informasiya, təşkilati, iqtisadi infrastrukturun yaradılması;

Dünya iqtisadiyyatının qloballaşdığı bir zamanda ölkənin iqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar strategiya dövlət tərəfindən işlənib hazırlanır və reallaşdırılır. Bu strategiya əsas olaraq dövlətin sosial iqtisadi sabitliyə nail olunması və təhlükəsiz formada ölkə iqtisadiyyatının idarə edilməsi və qorunması ilə bağlı bir sıra məsələlərin həllini özündə cəmləşdirməlidir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması ilə əlaqədar dövlət tərəfindən həyata keçirilən iqtisadi təhlükəsizlik strategiyası və bu istiqamətdə dövlətin fəaliyyəti özündə aşağıdakı ünsürləri cəmləşdirir.

- İqtisadi təhlükəsizlik çərçivəsində kompleks dövlət tədbirlərinin işlənib hazırlanması;
- İqtisadiyyatın hərtərəfli və obyektiv monitorinqi baxımından informasiya mərkəzinin formalaşdırılması.Bu məsələni həll etmədən ölkənin iqtisadi təhlükəsizliyi üçün mövcud təhdidləri və təhlükələri proqnozlaşdırmaq və bu təhlükələrə qarşı kompleks tədbirləri işləyib hazırlamaq mümkün deyildir.

Azərbaycan Respublikasının iqtisadi təhlükəsizlik strategiyası dövlətin təhlükəsizlik sistemi vasitəsilə reallaşır. Təhlükəsizlik sisteminin təşkil edilməsində dövlətin icra, qanunverici, məhkəmə orqanları və vəzifəli şəxsləri iştirak edirlər.

Ölkəmiz müstəqillik əldə etdikdən sonrakı prosesi milli iqtisadiyyatda qeyri-neft sektorunun və eləcə də regionların iqtisadi inkişafı kimi xarakterizə edə bilərik. Belə ki, hələ sovet dövründən ölkəmizdə istehsal güclərinin ərazi üzrə yaranan qeyri-bərabər yerləşdirilməsi kəndvə şəhər bölgələri arasında balansın pozulmasına və iqtisadi inkişaf baxımından kəskin fərqlərin formalaşmasına, düzgün regional idarəetmə sisteminin və regional siyasətin olmaması iqtisadiyyatda tarazlığın pisləşməsinə və ziddiyyətlərin mövcud olmasına səbəb olmuşdur.

Bazar münasibətlərinə keçid regionlar arasında qeyri-bərabərliyi daha da kəskinləşdirmiş və iqtisadi inkişaf baxımından zəif ərazilərin geri qalmasına səbəb

olmuşdur. Müstəqilliyimizin ilk dövrlərindən ölkə iqtisadiyyatındaistehsalın aşağı düşməsi təsərrüfat və ərazi əlaqələrinin pozulmasına, regionların inkişafına kapital qoyuluşlarının azaldılmasına və həmçinin bir sıra məsələlərdə qeyri-sabit proseslərə gətirib çıxarmışdır.

**Şəkil 1. İqtisadi təhlükəsizlik sistemi və onun blokları**




**Mənbə:** Senqeçov V.K. 2008, s 79

Ölkəmiz müstəqillik əldə etdikdən sonra genişmiqyaslı iqtisadi islahatlar həyata keçirilmiş regionların sosial iqtisadi problemlərin həlli üçün əlverişli məqam yaranmışdır. Xüsusilə də iqtisadi islahatlar, keçid prosesində dünya təcrübəsinin öyrənilməsi və prezident fərmanları, sərəncamları xüsusi dövlət proqramlarının qəbul olunması, birgə müqavilələr və sazişlərə dəyişikliklərin hüquqi bazasının yaradılması kimi kompleks tədbirlərin ardıcıl həyata keçirilməsitəmin edilmişdir. Bu istiqamətdə dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramı “Azərbaycan iqtisadiyyatının sabitləşməsi” proqramı, “Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə” dövlət proqramı və respublika bölgələrinin sosial-iqtisadi inkişafı üzrə

dövlətin həyata keçirdiyi bir çox proqramlarının olmasını misal göstərə bilərik. Qəbul edilən bu regional inkişaf proqramları ümumilikdə bu regionların strateji inkişaf konsepsiyasının reallaşdırılmasının mühüm tərkib hissəsi hesab edilir.

Regional inkişaf proqramlarının hazırlanması, bir sıra qanunauyğunluqlar əsasında müəyyənləşdirilir ki, bunlara misal olaraq məqsədlilik, kompleksIilik, peşəkarlıq, aşkarlılıq prinsiplərini göstərə bilərik. Regionların inkişaf ilə əlaqədar qəbul edilən proqramların qərar və sərəncamlarını aşağıdakı formada göstərmək olar.

- Bütün regionların kompleks inkişafının vacib problemlərinin həlli;
- Regionların inkişafı ilə əlaqədar meydana çıxan problemlərin həlli istiqamətində sosial tərəfdaşlıq strategiyalarına əməl edilməklə, idarəetmə və təsərrüfatçılıq subyektlərinin maraqlarının əlaqələndirilməsi;
- Regionun inkişafı üçün nəzərdə tutulmuş strateji inkişaf məqsədlərinə nail olmağın mümkünlüyünün əsaslandırılması;

2004-ci ildən əsas kapitala yönəldilən investisiyanın artması qrafik 1-dən göründüyün kimi ÜDM-in artımında öz müsbət təsirini göstərmişdir. Regionların hərtərəfli inkişafı ilə əlaqədar 2004-cü ildən başlamış məqsədli siyasətin davamı olaraq Azərbaycanda qəbul edilən regionların inkişafı ilə əlaqədar 2014-2018-ci illəri əhatə edən Dövlət Proqramına ölkə iqtisadiyyatının inkişafında makroiqtisadi stabilliyin təmin olunmasından, yeni müəssisələrin və işçilərinin qəbulundan və regionlar arasında qeyri-bərabərliyin aradan qaldırılmasında, eləcə də yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır. İqtisadi sahədə həyata keçirilən tədbirlərlə müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən faydalanmaqla ümumilikdə ölkənin iqtisadi qüdrətinin artırılmasına şərait yaradılmışdır. Buna müvafiq olaraq regionların sosial iqtisadi inkişafı ilə bağlı qəbul edilən son Dövlət Proqramının uğurlu olması iləölkədə makroiqtisadi göstəricilərin səviyyəsində artımın əldə edilmişdir. Həmçinin nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin yaşam səviyyəsinin qalxmasına səbəb olmuşdur.

**Qrafik 1.Əsas makroiqtisadi göstəricilər (2000-2008)**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
**Link:** www.stat.gov.az

**Qrafik 2. Dövlət büdcəsinin artım dinamikası (mln manat) (2004-2009)**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
**Link:** www.stat.gov.az

Buna müvafiq olaraq iqtisadiyyatın qeyri-neft sektoru üzrə digər sahələrinin inkişaf dinamikasına nəzər salaq.

**Cədvəl 1. İqtisadiyyatın ayrı ayrı sahələrinin inkişaf dinamikası (2014-2017)**

| | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|
| Kənd təsərrüfatı | 5.1 | 6.3 | 8.5 | 12.4 |
| Nəqliyyat | 4.9 | 7.3 | 9 | 12.4 |
| Ticarət | 11 | 13 | 15.6 | 18 |
| Tikinti | 13 | 17 | 19.2 | 21 |
| Rabitə | 16 | 12 | 17.6 | 18.4 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
**Link:** www.stat.gov.az

**Cədvəl 2. Neft və qeyri-neft sektorunun ÜDM tərkibindəki payı, milyon manatla (2010-2016)**

| | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** |
|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 42.465 | 52.084 | 54.265 | 56.245 | 58.147 | 62.021 | 64.145 |
| Neft-qaz sektoru | 20.145 | 25.498 | 24.145 | 23.478 | 21.619 | 23.456 | 20.478 |
| Qeyri-neft sektoru | 19.457 | 23.456 | 26.789 | 30.458 | 33.478 | 35.469 | 37.145 |
| Məhsula və idxala xalis vergilər | 2.145 | 3.012 | 3.845 | 3.795 | 4.220 | 4.325 | 4.125 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
**Link:** www.stat.gov.az

Ümumilikdə deyə bilərik ki, iqtisadi təhlükəsizlik istiqamətində dövlət strategiyasının həyata keçirilməsi bir sıra tələbləri qarşıya əsas məqsəd kimi qoyur. Bunlar aşağıdakılardan ibarətdir:

- Dövlətin tənzimləyici funksiyasına uyğun informasiya təminatının təşkili
- İqtisadi təhlükəsizliyin təmin edilməsi istiqamətində dövlət strategiyasının reallaşdırılması ilə əlaqədar mərkəzi və yerli orqanların funksiyalarının müəyyənləşdirilməsi
- Mərkəzi və yerli orqanların iqtisadi təhlükəsizliklə bağlı vəzifələrinə dəqiq hədd qoymaq və onların fəaliyyətini izləmək

Sadaladığımız bu tələblərə müvafiq olaraq siyasi, iqtisadi təhlükəsizlik strategiyasının əsas məqsədlərini aşağıdakı kimi deyə bilərik.

- Azərbaycanın bütövlüyünü və müstəqilliyini, eləcə də cəmiyyətin tələbatlarının ödənilməsi, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi ilə əlaqədar iqtisadi inkişafa nail olmaq;
- Müasir dövrdə qloballaşma şəraitində ölkənin dünya təsərrüfatına bərabərhüquqlu inteqrasiyasını təmin etmək.

Bu məqsədlərə çatmaq üçün isə müəyyən şəraitin olması zəruri hesab edilir ki, bunlar aşağıdakılardan ibarətdir:

- Dünyada baş verən və ölkəmizə təsir edən proseslərə təsir etmək imkanlarının mövcud olması;
- Dövlətlərin iqtisadi təhlükəsizlik sahəsində milli maraqları çərçivəsində müxtəlif sahələrdə siyasi, iqtisadi tədbirlərin məqsədəuyğun şəkildə reallaşdırılması.

Dediyimiz məsələlər fonunda iqtisadi təhlükəsizlik strategiyası, ümumi olaraq aşağıdakı bölmələrə ayrılır;

- İqtisadi təhlükəsizliyinin kriteriya və ölçülərinin müəyyənləşdirilməsi;
- İqtisadi təhlükəsizliyə qarşı mövcud təhlükələrin müəyyən edilməsi.

İqtisadi təhlükəsizlik strategiyasını daha səmərəli formada reallaşdırmaq məqsədilə dövlət tərəfindən elə bir forma işlənib hazırlanmalıdır ki, bu sistem daha az itkiyə səbəb olmaqla bərabər, sistem daxilində iqtisadi təhlükəsizlik, müxtəlif sferalar üzrə iqtisadiyyatın inkişafı təmin etsin. Bu baxımdan da məhz dövlətin iqtisadiyyata müdaxiləsi və iqtisadi təhlükəsizliklə bağlı məsələlərdə müdaxiləsinin sərhəddi və kriteriyası müəyyənləşdirməlidir. Bununla yanaşı, bu strategiyanın hazırlanması zamanı xarici iqtisadi, ekoloji, demoqrafik və texnoloji keyfiyyət meyarları da diqqət mərkəzində saxlanılmalıdır. İqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar dövlətin həyata keçirdiyi strategiya çərçivəsində vəzifə və mexanizmlər işlənib hazırlanarkən ilk öncə yüksək dərəcəli təhlükələr müəyyən edilir. Daha sonra isə bu iqtisadi təhlükələrin bir-birindən fərqləndirilməsi və mərhələlər üzrə onların qarşısının alınması ilə əlaqədar tədbirlər reallaşdırılmalıdır. Ölkənin iqtisadi təhlükəsizliyilə əlaqədar dövlət tərəfindən iqtisadi təhlükəsizlik

strategiyasının hazırlanması milli iqtisadiyyatının formalaşdırılması və inkişafı ilə paralel şəkildə yerinə yetirilir. Ölkənin iqtisadi təhlükəsizliyinin tənzimlənməsi məsələsində dövlət bütün məsuliyyəti öz üzərinə götürməli və bazar mexanizminin işləməsində maraqlı olmalıdır. Bunun əsas səbəbi ondan ibarətdir ki, bu zaman iqtisadi təhlükəsizliyin təmin olunmasında yalnız hökümət deyil, ölkənin bütün vətəndaşları bu prosesə cəlb edilirlər. Bu isə təhlükəsizliyin daha etibarlı şəkildə təmin olunmasına şərait yaradır.

Qloballaşan dünyada bu istiqamətdə dövlətlərin təcrübəsinə diqqət yetirsək görərik ki, hər bir dövrdə iqtisadi təhlükəsizliyin təmin edilməsi üzrə mövcud strategiyada bir sıra problemlərin həll olunması qarşıya əsas məqsəd kimi qoyulur. Bunlar aşağıdakılardan ibarətdir:(Əhmədov M.A. 2003, s 53)

- Makroiqtisadi  və siyasi sakitliyin təmin olunması;
- Ətraf mühitin müdafiəsi;
- Sosial infrastruktur sferalarının inkişafının tənzimlənməsi;
- İqtisadi təhlükəsizliklə əlaqədar hüquqi normativ aktların qəbul edilməsi və onlara riayət edilməsi;
- Əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin təmin edilməsi;

Respublikanın iqtisadi təhlükəsizliyində vətəndaşların təhlükəsizliyin təmin edilməsi prosesini nəzərə alsaq, burada 2 əsas predmeti deməliyik. Birinci istehsal, istehlak və bölgü münasibətlərində yaranan qarşılıqlı münasibətlərin və təhlükəsizliyin qorunması ilə bağlı məsələlərdir. İkincisi isə hər bir vətəndaşın  öz təlabat, ehtiyac və maraqlarının ödənilməsi və təhlükəsizliyi ilə bağlı məsələlərdir. Məhz buna görə də respublikanın iqtisadi təhlükəsizlik strategiyasının düzgün şəkildə tətbiqi ümumilikdə iqtisadiyyatın inkişafına gətirib çıxarır. Bu amil özü də ikitərəfli əhəmiyyət kəsb edir. Bu bir tərəfdən ölkədə ümumi təhlükəsizliyin təmin edilməsi infrastruktur sahələrin inkişafına səbəb olur, digər tərəfdən isə əhalinin həyat səviyyəsi və sosial tələbatlarının ödənilməsinin təminatçısı qismində çıxış edir.

Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunması və bu sahədə dövlətin iqtisadi təhlükəsizlik strategiyasının yaradılması zərurəti milli iqtisadiyyatın ixtisaslaşmasının yeni sferalarının inkişaf etdirilməsini tələb edir. Həmçinin, qloballaşma öz növbəsində xarici istehsalçılar tərəfindən rəqabətin gücləndirilməsi deməkdir.Bu da Azərbaycanda və hər bir ölkədə istehsal olunan məhsulun keyfiyyətinin artırılmasını tələb edir.

Ölkə təhlükəsizliyinin bir parçası kimi çıxış edən iqtisadi təhlükəsizlik, həm də onun maddi əsasını təmin edir. Təhlüksizlik strategiyasının tətbiqi baxımından əvvəlcə iqtisadiyyatın mövcud vəziyyətinin kompleks monitorinqi, ölkənin suverenliyinin və dünya üzrə geosiyasi vəziyyətinin qorunub saxlanılması, dövlət tənzimlənməsi istiqamətində səmərəliliyin artırılması,qanunverici və məhkəmə hakimiyyətinin gücləndirilməsi və bir sıra məsələlər çox mühümdür.

İqtisadi təhlükəsizlik istiqamətində dövlətin tətbiq etdiyi strategiya baxımından qeyd edə bilərik ki, ölkəmizdə iqtisadi təhlükəsizliyin təmin edilməsi qənaətbəxşdir. Bu istiqamətdə ölkəmizin kifayət qədər investisiya ehtiyatları, ixtisaslı kadr potensialı mövcud olmasına rəğmən, istənilən halda, bu tip tədbirlərin daimi olaraq keçirilməsi zəruri hesab edilir. Xüsusilə, elmi texniki tərəqqinin inkişaf etdiyi bir şəraitdə iqtisadi təhlükəsizliyin təmin olunmasında elm və təhsilin məqsədyönlü təşkili əhəmiyyətlidir. Bunula yanaşı intellektual mülkiyyətin qorunması və bu istiqamətdə qəbul edilmiş beynəlxalq standartların tətbiq edilməsi olduqca vacib hesab edilir. Yüksək məhsuldarlıqlı əməyin təşkil olunması və intellektual mülkiyyətin qorunması qloballaşma şəraitindəölkəmizdə müxtəlif xidmət sahələri üzrə ixrac məhsullarının istehsalını daha da stimullaşdırır. Belə bir şəraitdə iqtisadi əlaqələr iqtisadi təhlükəsizliyin təmin olunmasının tərkib hissəsi şəklində çıxış edir. Qloballaşma şəraitində rabitə, nəqliyyat və enerji sahələrinin inteqrasiyası dövlətin iqtisadi təhlükəsizlik strategiyasında da çox mühüm rol oynayır.

Müasir dövrdə milli iqtisadiyyatın imkanlarının aşkar edilməsi, qloballaşma şəraitində ölkədə iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından çox mühümdür. Xüsusilə, elmi texniki tərəqqinin inkişaf etdiyi bir dövrdə sənayenin inkişafı, iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından zəruri hesab edilir. Bununla belə dövlət

tərəfindən həyata keçirən sənaye siyasəti də olduqca aktualdır və onun 2 istiqaməti var. İqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından həyata keçirilən sənaye siyasətinin 1-ci istiqaməti əsasən makroiqtisadi xarakter daşıyır. Bununla yanaşı müxtəlif üsullarla dövlət tərəfindən iqtisadi təhlükəsizlik strategiyasının həyata keçirilməsi, dövlət tənzimlənməsinin yolları və vasitələrinin seçilməsinə istiqamətlənməlidir. Digər istiqamət isə iqtisadiyyatda istehsalın səmərəliliyin artırılması və cəmiyyətin ehtiyaclarının ödənilməsi ilə əlaqədar rəqabət mühitinin formalaşdırılması və sahibkarlığın inkişafı ilə əlaqədardır. Bu da öz növbəsində, qloballaşma şəraitində təhlükəsizliyin təmin olunmasının əsas prinsiplərindən biri hesab edilən istehsalda komplekslilik prinsipinin tələblərini ödəyir. Sahibkarlığın inkişafı və rəqabət mühitinin formalaşdırılması ilə əlaqədar 2-ci istiqamət isə ölkədə daha çox sənaye sahibkarlığının inkişafını nəzərdə tutur. Sənaye sahibkarlığın inkişafı iqtisadi səmərəliyinin artırılması və dayanıqlı iqtisadi inkişafla nəticələnir. Beləliklə qloballaşan dünyada elmi texniki tərəqqinin inkişaf etdiyi bir dövrdə dövlət tərəfindən iqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar sənaye sahəsi üzrə həyata keçirilən tədbirlər və istiqamətlər ümumilikdə cəmiyyətdə sosial problemlərin həll edilməsinin, gərginliyin azaldılmasına, daxili istehsalın həcminin artırılmasına, rəqabət qabiliyyətli iqtisadiyyatın inkişaf etdirilməsi və iqtisadi gücünün artmasına səbəb olur.

Bu baxımdan istehsal sahələrinin inkişafı və ölkədə həyata keçirilən sənaye siyasəti ümumi və fərdi xarakter daşımalıdır. İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə əlaqədar həyata keçirilən sənaye siyasəti ümumi xarakter daşımaqla, daha çox mövcud sektorun inkişafı baxımından geniş imkanların yaradılmasına istiqamətlənir. Ümumilikdə dövlətin iqtisadi təhlükəsizlik strategiyasında sənaye siyasətinin tətbiqi təhlükəsizlik baxımından müəyyən təsərrüfat qaydalarını, dövlətin iqtisadi təsir vasitələrini, standartlar üzərində nəzarət vəs. əlində birləşdirməklə iqtisadi təhlükəsizliyin təmin edilməsi imkanlarına nail olur.

Qloballaşma şəraitində dövlətin iqtisadi təhlükəsizlik strategiyası çərçivəsində müxtəlif sektorlar arasındakı əlaqələrin inkişafına nail olmaq iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Bu isə iqtisadi vahidlik

prinsipinə əsaslanır. Bunun əsas səbəbiodur ki, dünyada inteqrasiya proseslərinin sürətləndiyi bir şəraitdə iqtisadiyyatın səmərəli strukturunun formalaşması müxtəlif sektorlar arasında qarşılıqlı əlaqələrin inkişafına səbəb olur. Buna müvafiq olaraq qeyd edə bilərik ki, iqtisadi tamlıq prinsipi aşağıdakı məsələlərlə müəyyən edilir.

•İqtisadi təhlükəsizliyin qorunması ilə əlaqədar geniş təkrar istehsal prosesinin təşkil edilməsi

•İqtisadi, təbii və coğrafi amillərdən uyğun şəkildə istifadə edilməsi

•Bazar subyektlərinin hüquq münasibətlərinin milli iqtisadiyyatın formalaşmasına xidmət etməsi

•İnstitusional amillərin başqa sözlə, iqtisadi siyasətin işlənib hazırlanması

Dediyimiz bu meyarlarla yanaşı ümumilikdə qeyd edə bilərik ki, qloballaşan dünyada iqtisadi təhlükəsizliyin təmin olunması dövlətlərin həyata keçirdiyi iqtisadi təhlükəsizlik strategiyası, onun təkmilləşdirilməsi ilə əlaqəli olub konkret olaraq, 2 istiqaməti əhatə edir.

•Əsas makroiqtisadi parametrlərin tənzimlənməsi

•İqtisadiyyatda monitorinq tədbirləri

İqtisadi təhlükəsizliyin təmin olunması baxımından reallaşdırılan reyd tədbirləri özünü təhlükəsizlik göstəricilərinin dinamikasında və dövlətin monitorinq tədbirləri vasitəsilə sosial iqtisadi sfera üzrə ölkədə baş verən dəyişikliklərdəbiruzə verir. Monitorinq tədbirləri vasitəsilə dövlət iqtisadiyyatda və iqtisadiyyatın hüquqi təminatı ilə əlaqədar normativ hüququ bazadakı boşluqları müəyyən edə bilir. Bu boşluqların aradan qaldırılması isətəhlükəli iqtisadi amillərin aşkar edilməsi hesabına reallaşdırılır.

### 1.3. İqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin milli iqtisadi inkişaf modelinin rolu

İqtisadi təhlükəsizlik, dövlətin milli təhlükəsizlik ilə bağlı strategiyası çərçivəsində həyata keçirilən milli maraqları və strateji prioritetləri nəzərə alaraq təmin edilməlidir. Bu baxımdan iqtisadi təhlükəsizliyin inkişaf ideologiyası çox mühümdür. Çünki, Bu ideologiya olmadan iqtisadi təhlükəsizlik və onun özünə aid etdiyi, əhalinin yaşam səviyyəsinin yüksəldilməsi, büdcə gəlirlərinin artırılması və iqtisadi təhlükəsizliklə bağlı bir çox məsələləri həll etmək mümkün olmaz. Buna görə iqtisadi təhlükəsizliyi ölkənin iqtisadi inkişaf modelinin tətminedici vasitəsi kimi dəyərləndirmək olar.

İqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsi ilə bağlı milli iqtisadi inkişaf modelindən əvvəl bildirməliyik ki, milli model anlayışı elmə ötən əsrin 70-ci illərində gəlmişdir. Belə ki, milli model bütün ölkələrin davamlı iqtisadi inkişafı ilə bağlı uzun bir dövrü əhatə edən və mövcud modelin əsasını təşkil edən aparıcı sahələr üzrə sabitliyin  hökmranlıq etdiyi dövrlərdə tətbiq olunur. Bu baxımdan ölkənin davamlı iqtisadi inkişaf modeli dedikdə milli təsərrüfatın tamlığını özündə əks etdirən müxtəlif mexanizm və üzvləri arasındakı qarşılıqlı asılılıq və əlaqələr başa düşülür. İqtisadiyyatın təhlükəsizliyinin təmin olunması ilə bağlı milli iqtisadi inkişaf modelini dəyərləndirərkən bir sıra makroiqtisadi amillərdən istifadə olunur. Bu amillər  isə aşağıdakılardan ibarətdir :

- İstehlak qiymət indekslərinin dəyişməsi
- ÜDM həcmi, strukturu
- İqtisadiyyatın təhlükəsizliyin təmin olunması ilə əlaqədar aparılan iqtisadi siyasətin məqsədi və vasitələri
- Bazar mühiti və onun müxtəlif sahələrinin inkişaf səviyyəsi

Milli iqtisadi sistemin dünya təsərrüfatına inteqrasiyası və milli iqtisadi inkişaf modelini dəyərləndirərkən, bəhs etdiyimiz makroiqtisadi amillərin və iqtisadiyyatın açıqlıq səviyyəsinin artması vəziyyətində iqtisadi təhlükəsizliyin təmin edilməsimühüm əhəmiyyət kəsb edir. Mövcud iqtisadi təhlükəsizlik vəziyyətinin

bəhs edilən göstəricilər əsasında qiymətləndirilməsi zamanı ölkənin mövcudiyyəti və milli dövlətçilik maraqlarına, ölkədə müxtəlif sferalarının fəaliyyətinə qarşı baş verə biləcək təhlükələrin qarşısının alınması da bu prosesdə vacib hesab edilir. İqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar mövcud təhlükələrin aşkar edilməsi dövlət müstəqilliyinin bərpa edildiyi dövrdən indiyə qədər olan bir dövrü əhatə etməlidir. Bu dövr üzrə iqtisadi təhlükəsizliyin təmin olunması səviyyəsi araşdırılmalı və bu prosesdə ölkənin iqtisadi inkişaf modelinin rolu müəyyən edilməlidir.

Ötən əsrin 95-ci illərindən başlayaraq respublikamızda bir sıra sferalarının inkişafı ilə əlaqədar ÜDM-in davamlı olaraq artması ölkənin iqtisadi inkişaf modelinin formalaşmasına təkan vermişdir. 1994-cü ildə "Əsrin müqaviləsi"nın imzalanması enerji təhlükəsizliyinin başlanğıcını qoydu. Həmçinin onun icrasına başlanması prosesi digər sahələrin inkişafı üçün təkan rolunu oynadı. Bununla birlikdə, ölkədə müxtəlif sektorlar üzrə reallaşdırılan tədbirlər sayəsində ölkə iqtisadiyyatında müsbət meyillər daha da güclənmiş, makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadi artım yüksək həddə çatmışdır. Müxtəlif struktur islahatlarının aparılması qeyri-neft sahələrinin inkişaf etməsi ilə nəticələnmiş və bunun ilə birlikdə ölkənin dayanıqlı və davamlı iqtisadi inkişaf prosesinə müsbət təsir göstərmişdir. Məhz bunun nəticəsində ÜDM davamlı olaraq artmışdır. Bu proses xüsusi olaraq 1995-2006-cı illərdə daha çox intensivləşmişdir. Bununla əlaqədar göstəricilərə nəzər salaq.

Həmçinin 1995-2006-cı illər ərzində adam başına düşən ÜDM-də davamlı artım müşahidə edilmişdir. Bu illər ərzində dövlət tərəfindən həyata keçirilən tədbirlər milli iqtisadi inkişaf modelinin formalaşmasında və inkişafında çox mühüm rola sahibdir. Son illər ərzində iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması sahəsində dövlətin həyata keçirdiyi tədbirlər nəticəsində makroiqtisadi göstəricilərdə baş vermiş dəyişiklikləri tədqiqat işinin sonrakı bölmələrində təhlil edəcəyik. Bu hissədə isə 2006-cı ilə qədər olan makroiqtisadi göstəricilər əks etdirilmişdir.

**Diaqram 1. ÜDM cəm  (1995-2006)**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi bankı
**Link:** www.cbar.az

**Diaqram 2. ÜDM, adambaşı (1995-2006)**




**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi bankı
**Link:** www.cbar.az

İqtisadi təhlükəsizliyin təmin olunması ilə bağlı istər makroiqtisadi göstəricilərin təhlil olunması, istərsə də dövlət tərəfindən aparılan müxtəlif planlar,

sadaladığımız məsələlərlə məhdudlaşa bilməz. Bu istiqamətdə dövlət tərəfindən tənzimləmə siyasətinin aparılması, cəmiyyətin intellektual səviyyəsi və yaradıcı potensialın inkişafından da aslı olaraq dəyişilir.Dünya praktikasına nəzər salsaq görərik ki, dövlət tərəfindən həyata keçirilən siyasətlər ümumilikdə, dövlət mülklərinin özəlləşdirilməsi və bir sıra sferalar  üzrə qanunvericilik aktlarının qəbulu zamanı milli iqtisadi təhlükəsizlik nəzərə alınmadan tənzimləmə tədbirlərinin həyata keçirilməsi çox ağır nəticələrəsəbəb ola bilər. Bu səbəbdən də hər bir dövlət baş verə biləcək təhlükələrin və risklərin qarşısının alınması və minimuma endirilməsi məqsədiləbir sıra prosesləri təhlil edir.  Ölkəmizdə xüsusən də istehsal yönümlü özəl sektorların yaradılması və fəaliyyətinin aktivləşdirilməsi,ixracata meyilli müəssisələrə dövlət dəstəyinin qaldırılması iqtisadi təhlükəsizliyin tənzimlənməsi istiqamətində dövlətin birbaşa köməyi və səmərəliliyi kimi dəyərləndirilməlidir.

İqtisadi təhlükəsizlik və ümumilikdə milli təhlükəsizliyin təmin olunması istiqamətində intellektual mülkiyyətin müdafiə edilməsi və eləcə də elm və təhsilinin məqsədyönlü təşkili çox mühümdür. Bu sahədə dövlətin həyata keçirdiyi tədbirlərdən biri də elmtutumlu yüksək texnologiyanın yaradılmasıdır. İntellektual mülkiyyətin qorunması bir tərəfdən də dünya bazarına çıxa biləcək məhsul istehsalını stimullaşdırır. Xüsusilə də Azərbaycanda dövlət müstəqilliyi bərpasından sonrakı illər ərzində bu istiqamətdə görülən tədbirlər iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində də çox mühüm rol oynamışdır. Müasir dövrdə ölkənin milli maraqlarının və məqsədlərinin bütün dünya dövlətləri tərəfindən tanınması ilə əlaqədar reallaşdırılan düzgün, əsaslandırılmış iqtisadi tənzimləmə siyasətinin nəticəsi kimi iqtisadi təhlükəsizliyin səviyyəsi və keyfiyyəti barədə real təsəvvür formalaşır. Dövlətin bu barədə apardığı yüksək fəaliyyət isə hər şeydən öncə özünü davamlı iqtisadi inkişafda göstərir. Ölkənin stabil və davamlı iqtisadi inkişafına nail olmaq və iqtisadi təhlükəsizliyinin təmin olunması baxımından bir sıra amillərin diqqət mərkəzində saxlanılması isə olduqca aktualdır. Belə ki, iqtisadi təhlükəsizliyisaxlamaq baxımından iqtisadiyyatın dollarlaşmasının müəyyən həddi keçməsinin qarşısını almaq vacibdir. Bu baxımdan dünya təcrübəsinə nəzər salsaq,

söyləyə bilərik ki, hər bir ölkədə sağlam iqtisadiyyatın formalaşmasında dövriyyədə olan nağd pulla ÜDM  nisbətinin gözlənilməsi zəruri hesab edilir. Bu baxımdan, pul kütləsinin ÜDM-yə  nisbətinin ən azı 70-80%-i keçməməsi, iqtisadiyyatın normal fəaliyyəti üçün əsas şərtdir.

Dövlət tərəfindən xarici borcların vaxtında ödənilməsi və onun həddini aşmaması iqtisadi təhlükəsizliyin təmin edilməsi milli iqtisadi inkişaf modelinin qarşısında dayanan əsas məsələlərdən hesab edilir. Bu istiqamətdə dövlət hər zaman xarici borcun ödənilməsinə yönəldilən vəsaitin valyuta gəlirlərinin 25 faizini ötməməsinə diqqət yetirməlidir. Belə ki, dünya praktikasında məhz bu faiz göstəricisi iqtisadi təhlükəsizliyin müdafiə və təmin olunmasının minimum həddi kimi hesab edilir.

İqtisadi təhlükəsizliyin təmin olunması ilə əlaqədar dövlətin milli maraqlarına aşağıdakıları misal göstərmək olar.

- Vahid iqtisadi məkanın qorunub saxlanılması
- Bank sisteminin vahidliyi və sabitliyi
- İqtisadi və hüquqi şəraitin formalaşdırılması.
- Digər amillər

Ölkəmizdə iqtisadi təhlükəsizlik məsələsinin vacibliyi Milli təhlükəsizlik ilə bağlı Azərbaycan Respublikası Qanununda öz əksini tapmışdır. Bununla yanaşı, dövlətin milli iqtisadi inkişaf modeli çərçivəsində milli iqtisadi təhlükəsizlik sisteminin fəaliyyəti olduqca əhəmiyyətlisayılır.Bu sistemin formalaşması müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplər aşağıdakılardan ibarətdir :

- Milli iqtisadi təhlükəsizliyin təmin edilməsinin vahid dövlət siyasətinə əsasən, formalaşması və onun təmin olunmasının  əlaqələndirilməsi ;
- Qloballaşan dünyadan, beynəlxalq iqtisadi təhlükəsizlik sistemlərinə inteqrasiya prosesinin yüksəlməsi;
- Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində rol oynayan orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və onların fəaliyyətinin qarşılıqlı olaraq operativ surətdə intensivləşdirilməsi;

•Milli iqtisadi təhlükəsizliyin təminatı ilə əlaqədar fəaliyyətə nəzarət edilməsi.

Sadaladığımız bu prinsiplərə müvafiq olaraq iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətində milli iqtisadi inkişaf modeli qarşısında dayanan əsas meyarları bunlardır :

•Milli iqtisadi təhlükəsizlik təhdidlərinin təxmin edilməsi və proqnozlaşdırılması ;

•Ölkə iqtisadiyyatında sabitliyin təmin olunmasında mühüm rol oynayan vasitə və qüvvələrin müəyyənləşdirilməsi və buna uyğun olaraq hazırlığın təmin edilməsi ;

•Dövlətin qarşısında dayanan beynəlxalq iqtisadi öhdəliklərə uyğun olaraq ümumi və ölkə bölgələrin iqtisadi təhlükəsizlik sisteminin formalaşmasında iştirakı;

•Dövlətin iqtisadi təhlükəsizliyi qarşısında yarana biləcək təhdidlərin qarşısının alınması ilə əlaqədar iqtisadi resurs imkanlarının və vasitələrin səfərbər olunması və bunun ilə əlaqədar strateji planlar kompleksinin tətbiq edilməsi.

Milli iqtisadiyyatın sabitliyinin təmin olunması üçün ən önəmli hesab edilən elmi texniki potensial və innovasiya investisiya fəallığının azalması ciddi məqam hesab edilir. Belə ki, investisiya və innovasiya fəallığının azalması, milli iqtisadiyyatın böhran vəziyyətinə səbəb olur. İnnovasiya və investisiya üzrə iri kapital qoyuluşları istiqamətində iqtisadi təhlükəsizliyə əsas risklər aşağıdakılar hesab edilir :

•İnvestisiya sahəsi üzrə gələcəyə yönəlmiş strateji fəaliyyətin mövcud olmaması;

•Əsaslı tikinti resurslarının həcminin kəskin şəkildə aşağı olması;

•Onun alt sistemləri arasında mövcud iqtisadi əlaqələrin qırılması.

İnvestisiya fəaliyyətinə təsir göstərən əsas amillərdən biri də pul kütləsinin strukturu hesab edilir. Bu istiqamətdə isə 3 əsas məsələni xüsusilə qeyd etmək lazımdır.

- Pul kütləsinin süni üsulla azaldılması ;
- Əhalinin yığımlarının əmanətlərə gec çevrilməsi və əmanətlərinin investisiya potensialının aşağı səviyyədə olması;
- Pulun müstəsna səviyyədə yüksək dövriyyə sürəti – Bunun əsas səbəbi onunla əlaqələndirilir ki, bu vəsaitlərin böyük həcmi real sektorda deyil, daha çox valyuta maliyyə sahəsində cəmlənmişdir.

**Şəkil 2. Pul kredit sisteminin təhlükəsizliyinin formalaşması və ona təsir edən amillər**




**Mənbə:** Əliyev R. 2010, s 26

Pul kütləsinin süni yollarla azaldılmasını Mərkəzi bank həyata keçirir. Başqa sözlə daraldıcı monetar siyasət vasitəsi ilə milli iqtisadiyyatdakı pul kütləsini azaldır. Ölkədə banklara inamın aşağı olması səbəbindən yığımların investisiyaya çevrilmə prosesi zəifdir. Digər tərəfdən kredit faizlərinin yuxarı olmasıda ölkəmizdə əmanətlərin investisiyaya çevrilməsinə maneə olur.

Pul-kredit sisteminin təhlükəsizliyini formalaşdıran və ona təsir edən amillər isə şəkil 2-də göstərilmişdir. Dövlət tərəfindən valyuta, pul və maliyyə bank sistemləri üzrə iqtisadi təhlükəsizliyin təmin edilməsi zamanı bir sıra indikatorlardan istifadə edilir. Bunlara misal olaraq iqtisadiyyatın pulla təminat səviyyəsi, infilyasiya tempi, manatın məzənnəsi, xarici borc, daxili borc, maliyyə bazarlarına

nəzarət vəs. aid edə bilərik. Ümumilikdə isə kredit sahəsi üzrə iqtisadi təhlükəsizliyə əsas risklər kimi maliyyə-pul tədavülü, bank və kredit sahəsini göstərmək mümkündür.

# II Fəsil SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI VƏ QORUNMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 2.1. Ölkənin sosial-iqtisadi təhlükəsizlik strategiyasında iqtisadi təhlükəsizliyinin göstəricilər sistemi

İqtisadi təhlükəsizlik müəyyən meyarlar və göstəricilər sistemi içərisində reallaşır. İqtisadi təhlükəsizliyin meyarları dedikdə, iqtisadi təhlükəsizliyin mahiyyətini əks etdirən əlamətlər baxımından iqtisadi vəziyyətin qiymətləndirilməsi anlaşılır. İqtisadi təhlükəsizliyin meyları isə özündə aşağıdakıların qiymətləndirilməsini birləşdirir (Eyvazov E. 2013, s 19) :

- Ölkənin iqtisadi resurs potensialı və onun inkişaf imkanları
- İqtisadiyyatın rəqabətliliyi
- Sosial-iqtisadi sabitlik
- İqtisadi resurslardan(əmək, kapital vs) istifadə səviyyəsinin daxili və xarici təhlükələr zamanı minimum qəbul edilən səviyyədə olması

İqtisadi təhlükəsizlik göstəriciləri haqqında isə fərqli yanaşmalar mövcuddur. Bəzi ədəbiyyatlarda iqtisadi təhlükəsizliyin göstəriciləri aşağıdakı kimi qruplaşdırılır(Eyvazov E. 2013, s 19 - 20) :

- İqtisadi artım
- Büdcə kəsri
- Dünya iqtisadiyyatında ölkənin mövqeyi
- Kölgə iqtisadiyyatı
- Qızıl-valyuta ehtiyatlarının vəziyyəti
- İnflyasiya tempi
- İşsizlik dərəcəsi
- Həyat səviyyəsi və keyfiyyəti

İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı olaraq aşağıdakı göstəricilərin müqayisəsi aparıla bilər :

- Dövlət borcunun ümumi daxili məhusla və büdcə gəlirlərinə nisbəti

- Xarici borcların daxili məhusla və büdcə gəlirlərinə nisbəti
- Yoxsulluq səviyyəsi
- İnsanların orta yaşayış müddəti
- İllik inflyasiya səviyyəsi
- Ərzaq mallarının idxalının ümumi ərzaq istehsalına nisbəti
- İdxalatın ümumi daxili məhsula nisbəti
- İnvestisiyanın ümumi daxili məhsula nisbəti

Bu göstəricilərin müqayisəsi isə iqtisadi təhlükəsizlik probleminin mahiyyətini dərk etməyə imkan verə bilir.

Həmçinin iqtisadi ədəbiyyatlarda iqtisadi təhlükəsizliyin göstəriciləri şəkil 3--də verilən formada təsnifləşdirilə bilir.(Eyvazov E. 2012, s 21)

**Şəkil 3. İqtisadi təhlükəsizlik göstəricilərinin təsnifatı**

**İqtisadi təhlükəsizlik göstəriciləri**

**Təsnifat əlamətləri**

| İqtisadi təhlükəsizlik obyektinin səviyyəsinə görə | Göstəricilərin əhəmiyyətlik dərəcəsinə görə | Təhdid fəaliyyəti və onun proqnozlaşdırılması dövrünə görə | İqtisadiyyata təsir istiqamətinə görə | Təhdidlərin tərkibinə, onların təsirindən ehtimal olunan ziyanın miqyasına görə |
|---|---|---|---|---|
| 1. Makroiqtisadi səviyyə<br>2. Mezo səviyyə<br>3. Mikroiqtisadi səviyyə<br>4. Ailənin və şəxsiyyətin səviyyəsi | 1. Ümumi makroiqtisadi göstəricilər<br>2. Baza makroiqtisadi göstəricilər<br>3. Xüsusi iqtisadi göstəricilər<br>3.1. İstehsal<br>3.2. Sosial | 1. Taktiki (cari və orta müddətli)<br>2. Strateji (uzun müddətli) | 1. Daxili<br>1.1. İqtisadi xarakterli<br>1.2. İnstitusional xarakterli<br>2. Xarici | 1. Miqdar<br>2. Keyfiyyət |

**Mənbə:** Eyvazov E. 2013, s 21

Ümumi olaraq isə iqtisadi təhlükəsizlik göstəricilərini 4 başlıq altında birləşdirə bilərik :

•İqtisadi inkişaf göstəriciləri – Alıcılıq qabiliyyəti pariteti, adam başına düşən ÜDM, iqtisadi artım, insan inkişafı indeksi və s.

•Ölkənin təbii-resurs, istehsal, elmi-texniki potensialını əks etdirən göstəricilər.

•İqtisadi təhlükəsizliyə daxili və xarici təhdidlərin minimuma endirilməsi üçün dövlət müdaxiləsi

•Regionların elmi potensialının mühafizə olunması(ümumi istehsalda elmə çəkilən xərclərin payı, elmtutumlu sahələrdə işləyənlərin sayı)

Beynəlxalq səviyyədə araşdırılan insan inkişaf indeksinə (İİİ) əsasən 1996-cı ildən bəri ölkəmizdə insanların həyat səviyyəsi daim yaxşılaşmağa doğru meyl etmişdir. Hal-hazırda isə insan inkişafı indeksinin 2018-ci ilin məlumatlarına əsasən 189 ölkə arasında ölkəmiz 80-ci sıradadır. Ölkələr əsas üç parametr üzrə qiymətləndirilir:

•Orta ömür müddəti

•Adambaşına düşən ÜDM həcmi

•Təhsilin gözlənilən müddəti

Azərbaycanda insan ömrünün ortalama uzunluğu 72,2 il, ömür müddətində təhsil müddətinin ortalama uzunluğu 12,8 ildir. Təhsilin 10,8 ili məktəb illərinin hissəsinə düşür. Əhalinin adambaşına düşən ÜDM-i 15,5 min dollar kimi qiymətləndirilir.

Dünya ölkələri insani inkişaf səviyyələrinə görə çox yüksək, yüksək, orta və aşağı səviyyələrə bölünür. Ölkəmiz isə yüksək insani inkişaf səviyyəsinə sahib ölkələr içərisində yer tutub. Hansı ki, burada Türkiyə, İran, Meksika, Braziliya, Çin və sair kimi ölkələr yerləşib. Qrafik 3 – də isə insan inkişaf indeksinin ölkəmiz üçün inkişaf tempi verilmişdir. Ümumən insani inkişaf indeksi hər il ölkəmiz üçün yüksələn tepmdə artmışdır. Bu da iqtisadi inkişaf və iqtisadi təhlükəsizlik baxımından müsbət bir haldır.

**Qrafik 3. İnsan inkişafı indeksi**




**Mənbə:** İnsan inkişafı indeksi
**Link:** http://hdr.undp.org (15.04.2019)

Alıcılıq qabiliyyəti pariteti baxımından isə dünya bankının verdiyi göstəricilərə əsasən milli valyutamızın alıcılıq qabiliyyəti stabil olmuş və əsasən son illərdə müsbət artım qeydə alınmışdır. Əlbəttə qrafik 4-də böhran dövründə(2008) və devalvasiya(2015) zamanı milli valyutamızın alıcılıq qabiliyyətinin aşağı düşdüyü də görünür. Bunun da əsas səbəbi Azərbaycan iqtisadiyyatında neftsektorunun payının böyük olmasıdır. Ölkənin iqtisadi təhlükəsizliyi baxımından bir sektorun ölkə iqtisadiyyatında böyük paya sahib olması mən bir haldır. Buna görə ölkəmizin iqtisadi təhlükəsizliyi və davamlı iqtisadi inkişafı üçün qeyri-neft sektorlarının xüsusilə qeyri-neft sənayesinin inkişafına xüsusi dəstək lazımdır. Hal-hazırda da bu dəstək strateji yol xəritəsi və dövlət proqramları vasitəsi ilə təmin edilməyə çalışılır.

**Qrafik 4. Azərbaycan üçün alıcılıq qabiliyyəti paritetinin tempi**




**Mənbə:** Dünya bankı
**Link:** https://data.worldbank.org (15.04.2019)

Adambaşına düşən ÜDM statistikasına baxdıqda isə ölkəmizdə bu göstəricinin daim artdığını müşahidə edə bilərik(qrafik 5).

**Qrafik 5. 2007-2018-ci İllər üzrə adambaşına düşən ÜDM**




**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
**Link:** www.stat.gov.az

Statistika komitəsinin rəsmi saytlna əsasən 2018-ci il ərzində ölkə daxilində istehsal olunmuş ümumi daxili məhsul keçən il ilə müqayisədə 1,4 faiz yüksələrək 79789,4 milyon manata çatmışdır. Əhalinin hər bir nəfərinə düşən ümumi daxili məhsul 8157,3 manat və yax 4782,2 ABŞ dolları olmuşdur.

2007 – ci ildən günümüzə qədər adam başına düşən ÜDM statistikasına baxdıqda, onun ortalama olaraq hər il 10% artığını müşahidə edirik. Yalnız devalvasiya zamanı(2015-ci ildə) ötən il ilə müqayisədə 9% geriləmə müşahidə edilmişdir. Lakin daha sonra 2016-cı ildə 9%, 2017-ci ildə 13% və 2018-ci ildə 16% artım müşahidə edilmişdir.

### 2.2. Sosial-iqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin vahid sosial siyasətinin əsas meyarları

İqtisadi təhlükəsizliyin təməlini sosial təhlükəsizlik təşkil edir və fərdlərin sağlamlığı, yaşayış səviyyəsi, təhsil səviyyəsi və sosial müdafiəsi şəklində ifadə edilir. Cəmiyyətin sosial təhlükəsizliyini təmin etmək və onu qoruyub saxlamaq üçün isə dövlətlər sosial siyasətlər həyata keçirir.

Sosial siyasətlərin formalaşması və onların tətbiqi dövlətin funksiyalarından biridir. Dövlətin sosial siyasətləri cəmiyyətin həm sosial-iqtisadi inkişafı, həm də sosial-iqtisadi təhlükəsizliyi üçün vacibdir. Sosial siyasətin mahiyyəti cəmiyyətdəki müxtəlif sosial qrupların həyat səviyyəsini yüksəltmək və onların cəmiyyətə faydasını artırmaqdır.

Sosial siyasət – dövlətin daxili siyasətlərinin əsas hissələrindən biridir. Dövlət sosial siyasəti sosial proqramlar vasistəsi ilə həyata keçirir. Sosial qrupların mənafelərini və maraqlarını müdafiə edərək cəmiyyətdə olan münasibətləri tənzimləyir.

Dövlətin sosial siyasəti ilə sosial-iqtisadi təhlükəsizlik arasında qarşılıqlı əlaqə vardır. Dövlətin sosial siyasəti cəmiyyətin sosial-iqtisadi inkişafına dolayı yolla sosial-iqtisadi təhlükəsizliyin təmin olunmasına təsir göstərir.

Ölkəmizdə dövlətin sosial siyasəti əhalinin sağlamlığının qorunması, əhalinin sosial müdafiəsi, təhsil səviyyəsinin yüksəldilməsi, səhiyyənin inkişaf etdirilməsi kimi digər siyasətlər ilə əhatə olunur. Lokal və mərkəzi hakimiyyət qurumlarının sosial siyasətləri isə respublikamızın qanunvericiliyilə tənzim olunur və məhdudlaşır.

Əhalinin sosial ehtiyaclarının qarşılanması dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Bu da dövlət büdcəsindən maliyyələşmə ilə reallaşdırılır. Son illərin statistik göstəricilərinə əsasən Azərbaycanda məşğulların təxminən 20-24%-i sosial infrastruktur sahələrində çalışır. Bu isə dövlətimizin sosial siyasətinin həyata keçirilməsində birbaşa olaraq iştirakını göstərir.

Əhalinin sayının və sosial ehtiyacların ildən-ilə artması, dövlətin sosial siyasəti həyata keçirməsi üçün daha çox maliyyə cəlb etməsini zəruri edir. Bu səbəbdən də

ölkəmizdə hər il təhsil, səhiyyə, əhalinin sosial müdafiəsi və sair sahələrə ayrılan büdcə vəsaiti artır.

Ölkəmiz müstəqillik əldə etdiyi dövrdən bəri Azərbaycanın iqtisadi siyasətində sosial siyasət əhəmiyyətli olmuşdur. Çünki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında» qanunun icrası barədə 22 dekabr 2018-ci ildə imzaladığı fərmanda da qeyd edildiyi kimi 2019-cu ilin dövlət büdcəsində də əvvəlki illərin dövlət büdcələri kimi sosial siyasətə önəm verilir.

Dövlətimizin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətləri və onun maliyyələşməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin dinamikası aşağıdakı cədvəldə verilmişdir(cədvəl 3).

**Cədvəl 3. Sosial xərclərin tərkibi və əsas istiqamətləri**

| | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri-cəmi | 17416,5 | 19143,5 | 18709,0 | 17784,5 | 17751,3 | 17538,0 | 22723,2 |
| Təhsil xərcləri | 1453,2 | 1437,7 | 1553,9 | 1605,1 | 1754,4 | 1742,8 | 1966,6 |
| Büdcə xərclərində xüsusi çəkisi %-lə | 8,3% | 7,5% | 8,3% | 9,0% | 9,9% | 9,9% | 8,7% |
| Səhiyyə xərcləri | 609,4 | 618,9 | 665,3 | 708,2 | 702,5 | 704,7 | 709,9 |
| Büdcə xərclərində xüsusi çəkisi %-lə | 3,5% | 3,2% | 3,6% | 4,0% | 4,0% | 4,0% | 3,1% |
| Sosial müdafiə və sosial təminat xərcləri | 1769,5 | 1750,3 | 1971,2 | 1857,2 | 2645,2 | 2350,2 | 2150,7 |
| Büdcə xərclərində xüsusi çəkisi %-lə | 10,2% | 9,1% | 10,5% | 10,4% | 14,9% | 13,4% | 9,5% |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyasi………. | 240,8 | 274,9 | 294,0 | 272,4 | 687,4 | 253,3 | 299,5 |
| Büdcə xərclərində xüsusi çəkisi % lə | 1,4% | 1,4% | 1,6% | 1,5% | 3,9% | 1,4% | 1,3% |
| Elm | 116,7 | 117,0 | 124,2 | 113,2 | 110,2 | 109,8 | 117,8 |
| Büdcə xərclərində xüsusi çəkisi % lə | 0,7% | 0,6% | 0,7% | 0,6% | 0,6% | 0,6% | 0,5% |
| Cəmi % lə | 24,1% | 21,9% | 24,6% | 25,6% | 33,2% | 29,4% | 23,1% |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
**Link:** www.stat.gov.az

Cədvəl 3 – dən göründüyü kimi xüsusilə təhsil və əhalinin sosial mühafizəsi və sosial təminatına çəkilən xərclərdə davamlı olaraq artım vardır. Dövlət büdcəsindən ortalama olaraq hər il 8,8% təhsil xərcləri, 11,4% isə əhalinin sosial mühafizəsinə çəkilən xərclər üçün vəsait ayrılmışdır.

Təhsil üzrə xərclərın 175,8 mln. manatı (9,5 %-i) məktəbəqədər və ibtidai təhsil məktəblərinin, 1082.8 mln. manatı (52,2 %-i) natamam və orta təhsilin maliyyələşdirilməsinə yönəldilmişdir.

Elm(0,6%), səhiyyə(3,6%), mədəniyyət, idman, informasiya, və digər kateqoriyalara(1,5%) aid edilməyən sahədə fəaliyyətlərə ayrılan dövlət xərcləri isə daha çox stabil olaraq qalmışdır. Ümumən hər il büdcədəki xüsusi çəkiləri eyni olmuşdur.

2018-ci ildə sosial-mədəni tədbirlər üçün dövlət büdcəsindən 5,2 milyard manat maliyyə vəsaiti ayrılıb ki, bu da 2017-ci il ayrılan maliyyə vəsaitdən çoxdur. Lakin 2017-ci il ayrılan vəsait büdcə xərclərinin 29,4 % -ni təşkil etsədə 2018-c il üçün ayrılan vəsait 23,1% təşkil etmişdir. Ümumən isə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi dövlət üçün sosial siyasətin əhəmiyyətini göstərir.

Müstəqillik illərindən bu günə qədər ölkəmizin əldə etdiyi iqtisadi inkişaf, büdcə gəlirlərdə də artım olaraq özünü göstərmişdir. Bu da büdcənin bir çox istiqamətlərdə, xüsusilə sosial-mədəni tələbatın təmin edilməsində əhəmiyyətini artırmışdır. Hazırkı şəraitdə dövlətin sosial funksiyasının maliyyələşməsinin güclənməsi və əhalinin sosial-mədəni tələbatının təmin edilməsinə görə büdcənin əhəmiyyətinin artması dövlət büdcəsinin milli iqtisadiyyatındakı əhəmiyyətini artırmışdır.

Dövlətin sosial siyasətində regionların sosial-iqtisadi inkişafı və onların sosial təhlükəsizliyi də əhəmiyyətli yer tutur. Çünki iqtisadi təhlükəsizlik göstəricisi olan iqtisadi inkişafı əldə etmək üçün regionların da inkişafı vacibdir. Bu səbəbdəndir ki, sosial-iqtisadi inkişaf strategiyalarının vacib bir hissəsini təşkil edən 2004-2008, 2009-2013 və 2014-2018-cı illər üçün "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq və tətbiq edilmişdir. Hazırda 2019-

2023-cü illər üçün“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” 29 yanvar 2019-cu il tarixində təsdiq edilmişdir.

Dövlətin sosial siyasəti cəmiyyətin sosial-iqtisadi həyat fəaliyyətini tənzimləyən kompleks tədbirlərdən ibarətdir. Bu baxımdan dövlət təhsil, səhiyyə, mədəniyyət, incəsənət kimi sahələrin inkişafını təmin etməyə çalışır. Bununla bərabər, dövlətin sosial siyasəti sosial-iqtisadi təhlükəsizliyin əsas komponentləri olan bazar iqtisadiyyatında gəlirlər, gəlirlərin bölgüsündə bərabərsizliyin azaldılması(yəni gəlirlərin ədalətli bölgüsü) və cəmiyyətdəki sosial ixtilafların aradan qaldırılmasına istiqamətlənmişdir.

Yuxarıda qeyd etdiyim kimi gəlirlərin bölgüsü sosial təhlükəsizliyin əsas komponentlərindən biridir və əhalinin gəlirləri baxımından gəlirlərin qeyri-bərabərbər bölgüsü artmaqdadır. Gəlirlərin qeyr-bərabər bölgüsünü dayandırmaq üçün inkişaf etmiş bir çox ölkələrdə dövlət gəlirlərin yenıdən bölgüsünü həyata keçirir. Dövlətin gəlirlərin yenidən bölgüsündə əsas vasitələrindən biri əhalinin şəxsi gəlirinə tətbiq edilən vergi sistemidir. Dövlət əldə etdiyi vergi gəlirlərinin bir hissəsini əhalinin ehtiyacı olan təbəqəsinə ödəyərək qeyri-bərabərliyin azaldılmasına çalışır. Bir çox ölkələrdə sosial sığorta və yoxsullara dövlət yardımı proqramları vardır. Dövlətin sosial sığorta proqramı əhalinin yaşlılığa, əmək qabiliyyətinin itirilməsinə, iş yerlərinin məhdud olmasına görə sığortalanmasını əhatə edir. Əhaliyə dövlət yardımı proqramları əlavə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Buraya çox uşaqlı ailələrə yardım, ərzaq və müxtəlif səlahiyyətlərin verilməsi, səhiyyə sığortalanması və s. daxildirlər.

Ölkəmizdə də dövlət sosial-iqtisadi təhlükəsizliyi təmin etmək üçün sosial siyasətin tərkib hissəsi olan əhalinin sosial müdafiəsini təmin etməyə çalışır. Bu baxımdan illər üzrə sosial müdafiə və sosial təmina ayrılan xərclərdə cədvəl 3 – də verilmişdir.

Göründüyü kimi, ölkə iqtisadiyyatımız inkişaf etdikcə real milli gəlirimiz artır. Milli gəlirin və əhali sayının davamlı olaraq artımı isə dövlətin sosial siyasətinə ayrılan maliyyə vəsaitlərinin büdcədəki payını artırır. Bu isə ölkə vətəndaşları üçün yaxşı sosial şərait formalaşmasın, təhsil səviyyəsinin yüksəlməsinə, səhiyyənin,

sosial mühafizənin, sosial-mədəni sahələrin effektiv inkişafına, yəni sosial-iqtisadi təhlükəsizliyə müsbət mənada əhəmiyyətli təsir göstərir.

## 2.3. Sosial-iqtisadi təhlükəsizliyin təmin olunmasında dövlətin struktur siyasətinin əsas istiqamətləri

Sosial-iqtisadi təhlükəsizliyi təmin etməyə çalışan dövlət həm fərdlərin rifahını, həm yerli sahibkarların mənafelərini qorumağa çalışır. Bu isə öz növbəsində düşünülmüş, planlanmış, düzgün və səmərəli struktur siyasətinin həyata keçirilməsini tələb edir. Struktur siyasəti dedikdə iqtisadiyyatın regional, sahələrarası və sahələrdaxili həm həmiyyət, həm də keyfiyyət baxımından inkişafı başa düşülür. Bunu təmin edə bilən ölkələr həm sosial-iqtisadi təhlükəsizlik, həm də iqtisadi inkişaf baxımından irəliləmiş ölkələr olacaqlar. Bu səbəbdən dövlətin apardığı struktur siyasəti və onun istiqamətləri sosial-iqtisadi təhlükəsizlik üçün əhəmiyyətlidir.

Ümumiyyətlə, struktur siyasəti çoxşaxəli, mürəkkəb bir problemdir və milli iqtisadiyyatın bütün sahə, sfera və səviyyələrini əhatə edir.

Səmərə bir şəkildə struktur siyasətini tətbiq edən ölkələr düşdüyü iqtisadi böhranlardan daha asanlıqla çıxa bilirlər.

İnkişaf etmiş ölkələr zamanın nəbzinə uyaraq struktur dəyişikliyini vaxtında etmiş və bugün sosial-iqtisadi təhlükəsizlik baxımından ön sıralarda yer alıblar. Dünya təcrübəsi göstərir ki, uğurlu struktur dəyişikliklərini aparmaq, iqtisadiyyatın dünya bazarına məhsul çıxara biləcək sahələri dövlət yardımı olmadan inkişaf etdirmək çox çətindir. Dövlət yardımının olub-olmaması iqtisadçılar arasında müzakirə mövzularında biridir. Struktur dəyişikliyində əsas məqsəd yalnız əhalinin sosial müdafiəsi deyil, həm də rəqabət qabiliyyətli məhsullar istehsal etmək və yüksək texnologiyaları stimullaşdırmaqdan ibarətdir. Bu da ölkədə elmi texniki tərəqqinin inkişaf etməsini tələb edir.

Ölkə iqtisadiyyatını analiz edərkən ümumi olaraq ölkə iqtisadiyyatın strukturunu nəzərə almaq lazımdır. Respublikamızın iqtisadi strukrurunu aşağıdakı kimi təsnifləşdirmək mümkündür(şəkil 4):

**Şəkil 4. Ölkə iqtisadiyyatının strukturu**




**Mənbə:** Vəliyev P.A. 2016, s 45

Respublikamızın iqtisadiyyatının strukturunu əks etdirən şəkil 4-ə baxdıqda qeyri-neft sektorunun əsas 6 sahədən ibarət olduğunu müşahidə edirik. Bu sahələrdən tikinti, ticarət və sosial xidmətlər, rabitə və telekommunikasiya və nəqliyyat sektorları əsasən daxili tələbatın tələbini ödəməyə istiqamətlənmişdir. Bu sahələrdən ölkəmizi xarici ticarətdə kənd təsərrüfatı və qeyri-neft sənayesi təmsil edir.

Dövlətin struktur siyasətində sənayeləşmə xüsusi yer tutur. Müstəqillik illərindən sonra Azərbaycanda uzun müddət senayeləşmə baxımından neft sektorunun payı böyük olmuşdur. Bu sektorun inkişafı ölkəmizdə iqtisadi inkişafa, dolayı yolla sosial-iqtisadi təhlükəsizliyin yaxşılaşmasına təkan vermişdir. Xüsusilə 1995-2008 -ci illərdə sənaye sektorunda aparılan islahatlar bu sektorda əhəmiyyətli nəticələrin əldə olunmasına səbəb olmuşdur. Bu islahatlara "Əsrin müqaviləsi"ni, dövlət sənaye müəssisələrinin özəlləşdirilməsini misal göstərmək olar. Bu müqavilə ölkənin iqtisadi inkişafının təkan verici qüvvəsi kimi çıxış etmişdir.

Lakin bu illər ərzində əsas diqqətin neft-qaz sektoruna verilməsi iqtisadiyyatı bu sektordan asılı vəziyyətə sala bilərdi. Bu illər(2005-2008) üzrə neft-qaz və qeyri-neft sektorunun ÜDM-dəki payını göstərən statistikaya baxdıqda da, neft-qaz sektorunun payının daha çox olduğunu müşahidə edirik(cədvəl 4).

**Cədvəl 4. Neft-qaz və qeyri-neft sektorunun 2005-2008 illəri üzrə ÜDM-dəki payı**

| il | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|
| neft-qaz sektoru | 5.520,9 | 10.091,8 | 15.914,2 | 22.251,3 |
| qeyri-neft sektoru | 6.055,1 | 7.630,0 | 10.576,1 | 15.197,3 |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi bankı
**Link:** www.cbar.az

**Cədvəl 5. Neft-qaz və qeyri-neft sektorunun 2009-2018 illəri üzrə ÜDM-dəki payı**

| il | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| neft-qaz sektoru | 16.065,5 | 20.409,5 | 25.829,9 | 24.487,3 | 23.778,1 | 21.405,2 | 15.382,2 | 19.552,6 | 25.005,4 | 31.758,6 |
| qeyri-neft sektoru | 16.726,0 | 19.179,0 | 23.196,1 | 26.864,4 | 30.525,9 | 33.195,9 | 34.138,8 | 35.951,1 | 40.328,0 | 41.810,5 |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi bankı
**Link:** www.cbar.az

Daha sonrakı illərin statistikasına baxdıqda isə qeyri-neft sektorunun payının getdikcə artığını müşahidə edə bilərik(cədvəl 5).

2010-cu ilədək iqtisadi artımın əsas hərəkətverici qüvvəsi ənənəvi neft sahəsi olsa da, 2010–2014-cü illərdə iqtisadi artıma əsas faydanı qeyri-neft sahələri vermişdir. Dövlət Statistika Komitəsinin informasiyalarına görə, 2014-cü ildə qeyri-neft sahəsində 6,9 %, tikinti sahəsində 8,8 %, xidmət sahəsində 7,6 % yüksəliş qeydə alınmışdır. Bu sahələrin ümumi daxili məhsuldakı çəkilərinin təhlili göstərir ki, təbii resursların 2014-cü ildə iqtisadi artımda çəkisi 37 %, ikinci yerdə isə 14 %-lik templə tikinti sahəsi olmuşdur.

2015-ci ildə baş verən devalvasiyanın səbəbi neft qiymətlərinin kəskin aşağı düşməsi olmuşdur. Nəticədə isə bu ölkə iqtisadiyyatımızın tədiyyə balansında böyük mənfi saldoya səbəb olmuşdur. Mərkəzi bank isə milli valyutanın dəyərini aşağı salaraq iqtisadiyyatı tənzimləməyə çalışdı. Milli valyutanın dəyərdən düşməsi isə idxal edilən əmtəələrin bahalaşması, əhalinin həyat səviyyəsinin, alıcılıq qabiliyyəti

paritetinin aşağı düşməsi demək idi. Buda əhalinin sosial-iqtisadi təhlükəsizliyi baxımından mənfi bir təsir idi.

Bu baş verənlər göstərdi ki, hər nə qədər ölkədə getdikcə sənayeləşməyə, qeyri-neft sektorunun inkişafına çalışılsa da neft-qaz sektorunun hələ də, ölkə iqtisadiyyatındakı çəkisi böyükdür. Bu səbəbdən dövlətin struktur siyasətində qeyri-neft sektorunun inkişafı daha əhəmiyyətli məsələlərdən biri oldu. Bu məqsəd ilə qeyri-neft sahəsində müşahidə olunan proseslərə sürətli uyğunlaşma, həmçinin neft hasilatı sektorunun inkişafı üçün sənayenin qarşısında dayanan yeni çağırışlar və imkanların tətbiqi üçün İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanına əsasən Strateji Yol Xəritəsi öz təsdiqini tapmışdır. Strateji yol xəritəsi 2016-2020 – ci illər üçün davamlı iqtisadi inkişaf strategiyası və planını ehtiva özündə ifadə edir. Həmçinin ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi də burada əsas hədəflərdən biridir. Təsdiq edilmiş bu xəritədə iqtisadiyyatın 11 sahə üzrə perspektivləri dəyərləndirilmişdir. Bu 11 sahədən xüsusilə turizm sektoru, ağır sənaye sektoru və kənd təsərrüfatı sektorunun inkişafı prioritet məqsədlərdən biridir. Həmçinin kiçik və orta sahibkarlıq məhsullarının istehsalınında inkişafı strateji yol xəritəsində öz əksini tapmışdır. Bu xəritənin tətbiqi ilə sənaye strukturunun təkmilləməsi və qeyri-neft sənayesinin inkişafı gözlənilir. Nəzərə alsaq ki, hələ də sənaye məhsullarının ümumi buraxılış həcmində neft sektorunun payı böyükdür(Qrafik 6).

**Qrafik 6. 2017 və 2018 – ci illər üçün sənayedə ümumi buraxılışın bölgüsü**







**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi rəsmi saytı.
**Link:** www.economy.gov.az

2018-ci il üzrə sənaye istehsalının 73,0% mədənçıxarma, 22,2% emal, 4,1% buxar, qaz və  elektrik enerjisi, bölüşdürülməsi və təchizatı, 0,7% isə su təchizatı, tullantıların təmizlənməsı və emalı bölümlərində istehsal edilmişdir.

2018-ci ÜDM-in 44,2 faizini sənaye məhsulları təşkil etsə də qrafik 6 – dan gördüyümüz kimi bu istehsalın böyük hissəsini neft sektoru həyata keçirib. Qeyri-neft sənayesinin inkişafı üçün Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli 548 nömrəli fərmanı ilə Sumqayıt Kimya Sənaye Parkı yaradılmış. Burada artıq 7 müəssisə fəaliyyətə başlamış və daha 7 müəssisənin tezliklə fəaliyyətə başlaması planlaşdırılır. Ölkənin iqtisadi gücünün artması, ixracatın stimullaşdırılması məqsədi ilə 2018-ci ildə 44 sahibkarlıq subyektinə 55 investisiya təşviqi sənədi təqdim olunmuşdur. Yerli məhsulların istehsalının qorunması, qeyri-neft məhsullarının ixracının artırılması məqsədi ilə 84 əmtəə üzrə iki illik spesifik vergi tətbiq edilmişdir.

Beləliklə, qeyri-neft sektorunun inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli məhsulların istehsalının artırılması ölkənin dünya bazarında mövqeyini gücləndirir və iqtisadi inkişafa təkan verir. Dolayı yolla isə ölkənin sosial-iqtisadi təhlükəsizliyinin təmin olunmasını dəstəkləyir.

# III Fəsil AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİNATININ TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ BU SAHƏDƏ DÜNYA TƏCRÜBƏSİ

## 3.1. Qloballaşma şəraitində Azərbaycan Respublikasında sosial-iqtisadi təhlükəsizliyin təminatının təkmilləşdirilməsi istiqamətləri

Ölkədə sosial-iqtisadi təhlükəsizliyin təmini dövlətin qarşısında dayanan ən mühim problemlərdəndir. İqtisadi təhlükəsizliyin təmini isə ölkədə resurslardan səmərəli və effektiv formada istifadə, iqtisadiyyatın səmərəli strukturunun formalaşması və bir sıra məsələlərdən asılıdır.

Beynəlxalq ticarətin genişləndiyi, qloballaşma prosesinin intensivləşdiyi bir şəraitdə ölkələrdə davamlı sosial-iqtisadi inkişafın təmini daha çox beynəlxalq iqtisadi əlaqələrin uyğun vasitələr ilə genişləndirilməsindən keçir. Sadaladığımız məsələlərlə əlaqədar isə iqtisadiyyatın təhlükəsizliyinin təmin olunması aktuallaşır. Aərbaycan üçün isə iqtisadi təhlükəsizliyin vacibliyi daha da böyükdür. Çünki, SSRİ-nin dağılması ilə bağlı əvvəllər təsərrüfatçılıq sistemində birləşən respublikalar arasında iqtisadi əlaqələrin pozulması ölkələrin iqtisadiyyatında ciddi çətinliklərə səbəb oldu. İstehsal həcminin aşağı düşməsi, iqtisadi əlaqələrin qırılması və ənənəvi bazarların itirilməsi mövcud iqtisadi vəziyyəti daha çox çətinləşdirdi. Bu səbəbdən ölkələrdə iqtisadiyyatın inkişaf xüsusiyyətləri, iqtisadi təhlükəsizlik səviyyəsinin qorunub saxlanılması müasir dövrün aktual problemlərindən hesab olunur.

Hal-hazırda Azərbaycan Respublikasında iqtisadi təhlükəsizlik qənaətbəxş səviyyədədir. Ölkəmizdə bu istiqamətdə kifayət qədər tədbirlər həyata keçirilir. Bununla birlikdə digər dövlətlər ilə əməkdaşlıq edilir və bu sahədə yeniliklər daimi olaraq tətbiq olunur. Elmi texniki tərəqqinin inkişaf etdiyi bir dövrdə iqtisadiyyatın təhlükəsizliyinin təminində müxtəlif beynəlxalq standartlar da tətbiq edilir. İqtisadi təhlükəsizliyin təmin olunmasında rabitə, enerji və kommunikasiya kimi sahələrin inkişafı iqtisadi inteqrasiyada böyük rola sahibdir. Buna nümunə kimi göstərə bilərik ki, Azərbaycanda dövlət müstəqilliyi əldə edilməsindən daha sonra iqtisadi

siyasətinin əsas istiqamətləri kimi formalaşdırılan iqtisadi sistem məhz dünya iqtisadiyyatına inteqrasiya ilə əlaqədar məsələləri özündə əks etdirmişdir.

Günümüz dünyasının qloballaşması nəticəsində bütün ölkələr üçün iqtisadi təhlükəsizliyin təmin və bərpa edilməsi ölkənin daxilı və xarici siyasətinin əsas istiqamətlərindən biri olmuşdur. Ölkəmiz də bu baxımdan istisna deyil. Həm coğrafi mövqeyi, həm də təbii sərvətlərinin bolluğu baxımından respublikamız üstün mövqeyə sahibdir. Bunları nəzərə alsaq, respublikamızın iqtisadi təhlükəsizliyini təmin etməyi üçün müxtəlif seçimləri mövcuddur. Dövlət bu təbii sərvətlərdən mümkün olan imkanlar daxilində istifadə edir. Lakin, dünya davamlı olaraq inkişafdadır və iqtisadi inkişaf nöqteyi nəzərdən də dünya ölkələri qarşılıqlı beynəlxalq iqtisadi əlaqədədirlər. Bu da mövcud iqtisadi resurslardan səmərəli və effektiv istifadə edilməsi problemini həll etmək zərurəti ortaya çıxarır. Bu baxımdan dövlət səviyyəsində Azərbaycan Respublikası həm daxili, həm də xarici siyasətini balansda saxlayır. Xarici müəssisələri ölkəmizə investisiya qoyuluşu üçün stimullaşdırıcı və təşviq edici addımlar atılır. Dövlət ölkə daxilində iqtisadi ehtiyatların səmərəli və effektiv istifadəsinin təmini məqsədilə qanunları tənzimləyir. Bununla yanaşı bu sektora nəzarəti reallaşdıracaq dövlət qurumlarını yaradır və müəssisələri yaradır. Məlumdur ki, dövlətlərin iqtisadi resurs ehtiyyatları və imkanları onun sosial-iqtisadi inkişafının mühüm sığortasıdır. Ölkə üçün təbii sərvətlərin varlığı ölkə iqtisadiyyatın stabil və davamlı inkişafının təşkil və təmin olunmasının, həmçinin iqtisadi təhlükəsizliyinin təmini üçün mühüm amilidir. Lakin digər tərəfdən ölkə iqtisadiyyatının təbii sərvətdən asılı olmamağına diqqət yetirmək lazimdır. Respublikamız müstəqilliyini əldə etdiyi ilk illərdə ölkənin təbii sərvətləri və ehtiyatları sayəsində müstəqilliyin və iqtisadi təhlükəsizliyin əsas təməlini bərkitdi. Ölkəmizin təbii sərvəti olan neft müstəqilliyimizin elan olunduğu ilk zamandan dünya ölkələrinin ölkəmizə maraq və diqqətlərinin artmasında və formalaşmasında böyük rola sahib olmuşdur. Ölkəmizin təbii sərvəti olan neftə dünya ölkələrinin maraqları respublikamızın həm xarici, həm də daxili siyasətinin formalaşmasında və onun həyata keçirilməsind mühim rola sahib olmuşdur. Bu məqsədlə respublikamızın neft strategiyası seçilərkən, əsas beynəlxalq müəssisələr

və neft müqavilələri imzalanarkən ölkə iqtisadiyyatının təhlükəsizliyi, milli iqtisadiyyatının davamlı iqtisadi inkişafı əsas qəbul edilib. Hal-hazırda ölkəmizin dünya iqtisadiyyatına sürətlə inteqrasıya olduğu bir zamanda neft amili iqtisadi azadlığımız, həmçinin siyasi azadlığımızın əsas şərtinə çevrilmişdir. Həmçinin bu amil ölkəmizin sosial-iqtisadi inkişafının da əsas təkanverici qüvvəsinə çevrilib. Bütün bu sadalananlar öz növbəsində neft hasilindən əldə edilən gəlirlərin şəffaf və effektiv istifadəsini zəruri və məcburi edir.

Təbii sərvətdən ölkə iqtisadiyyatının asılı olmağı yeni qazanılmış müstəqillik illərində nə qədər ölkənin inkişafına müsbət təsir göstərsə də, uzun dövrdə ölkənin iqtisadi təhlükəsizliyi baxımından mənfi bir haldır. Çünki ölkə iqtisadiyyatının böyük bir hissəsinin bir sektordan asılı olması səbəbi ilə o sahədə baş verən mənfi effektlər ölkə iqtisadiyyatına böyük ölçüdə təsir göstərəcək. Bu səbəbdəndir ki, dövlət ölkədə digər sahələrin inkişafını təmin etmək, investorları cəlb etmək və iqtisadi təhlükəsizliyi təmin etmək məqsədi ilə bir sıra tariflər, qanunlar və dövlət proqramları hazırlanmışdır.

XXI əsri qloballaşma, beynəlxalq iqtisadi əlaqələrin genişlənməs və informasiya əsri kimi xarakterize edə bilərik. Bu əsrin əsas seçilən xüsusiyyətlərindən biri xidmət sektorunun payının istehsal sektorunun payını ötməsidir. Əksər inkişaf etmiş ölkələrın ümimi daxili məhsulunda xidmət sahələrinin xüsusi çəkisi 60-75%-i ötüb keçməsi bunu sübut edir. Bu nöqteyi nəzərdən respublikamız əlverişli üstünlüyə və şəraitə malikdir. Çünki, xidmət sektorunda iqtisadi resurs imkanlarından danışarkən ölkəmizin turizm potensialını xüsusi olaraq qeyd etməliyik. Çünki, turizm sektorunun inkişafı ölkəmizin iqtisadi gücünü artıra biləcək əsas istiqamətlərdən biridir. Hal-hazırda qloballaşma elə bir səviyyə çatmışdır ki, onun dayandırmaq demək olar mümkünsüzdür. Yəni beynəlxalq səviyyədə baş verən iqtisadi-siyasi hadisələr dolayı yol ilə hər bir ölkəyə təsir göstərir. Məsələn axırıncı dünya qlobal maliyyə böhranının ortaya çıxardığı mənfi təsirlərinin neft ixrac edən ölkələrə və bu ölkələrin iqtisadi inkişafında ortaya çıxan mühüm problemləri gözdən keçirək. Bu cür ölkələrin gəlirlərinin böyük hissəsi neft hasilatında asılı olması oxşar xüsusiyyətləridir. Neftdən əldə edilən

gəlirlər də beynəlxalq iqtisadi ticarətdən və buradakı əlaqələrdən birbaşa olaraq asılıdır. Neft qiymətlərinin aşağı düşməsi isə ölkəyə daxil olan xarici valyuta ehtiyatlarının böyük həcmdə azalması ilə müşaiyət olmuşdur. Bu da qeyri-neft sektorunun birbaşa davamlı inkişafına və ixracata öz təsirini göstərir:

- Daxilı və xarici investisiyaların ölkəyə istiqamətlənməsində maneələr ortaya çıxır;
- Ümumdünya bazarına qeyri-neft sektorunun əmtəələrinin çıxarılmasını məhdudlaşdırır;
- Qeyri-neft sahəsinin inkişafında və əsas layihələrin maliyyələşdirilməsində maneələr ortaya çıxır;
- Ölkənin ixracat imkanlarının təşviq edilməsi ilə bağlı dövlət mexanizmlərinin inkişafına ehtiyac yaranır;
- İxracatın təşviqi üçün əlavə olaraq dövlət dəstəyinə, qanunvericiliyin tənzimlənməsinə və təkmilləşdirilməsinə ehtiyac yaranır.

Bütün bu səbəblər ilə ölkəmiz beynəlxalq maliyyə böhranından yayına bilməmiş və onun mənfi təsirləri ilə üzləşməli olmuşdur. Neft ixrac edən digər dövlətlər kimi respublikamızda neft qiymətlərinin aşağı düşməsindən öz payını almışdır. Çünki dövlət büdcəsinin gəlirlərinin 70 %-ni neft hasilatından əldə olunan gəlirlər təşkil edirdi. Həmçinin ixracatının 96 %-dən çoxunu neft və neft əmtəələrindən təşkil olunması milli iqtisadiyyatın inkişafı üçün bir sıra problemləri özü ilə gətirmişdi. Bu vəziyyətdən çıxmaq üçün isə neft gəlirlərindən asılılığı minimuma endirilməsi və iqtisadi böhranların mənfi təsirinə davamlılığın artırılması məqsədilə qeyri-neft sahəsinin inkişafına diqqət ayrılmalı idi. Həmçinin ölkədəki yerli tələbatın qarşılanması və ixracatın artması məqsədilə qeyri-neft sahələrinin inkişafı üçün zərurət ortaya çıxmışdı.

Ölkəmiz böhranlardan minimum itkilər ilə çıxa bilmək üçün iqtisadiyyatının elastik olmağına çalışmalıdır. Bunun üçün isə ölkə iqtisadiyyatında bir neçə sektorun inkişafına xüsusilə qeyri-neft sektorlarının inkişafına diqqət lazımdır. Mövcud potensialın görə isə əsas diqqət turizm sektorunun inkişafına düşür. Bu mənada

dünyada formalaşan ümumi milli məhsulun təxminən 11 faizinin turizm sektorunun payına düşməsi də təsadüfi deyildir. Turizm sektorunun dünya iqtisadiyyatın bu paya sahib olması isə onun ölkə iqtisadiyyatı üçün necə mühim sahə olduğunu göstərir. Respublikamızda turizm sektorunun müxtəlif növlərinin inkişafı üçün əlverişli şərait və geniş təbii-iqtisadi resurs ehtiyatları vardır.

Təsadüfi deyildir ki, strateji yol xəritəsində də turizm sahəsinin inkişafı üçün xüsusi proqram və tədbirlər hazırlanmışdır. Bu tədbir və proqramların tətbiqi sayəsində xidmət sektorunun ölkə iqtisadiyyatında payını artırmaq və ölkənin iqtisadi təhlükəsizliyi baxımından dayanılıqlığın artırılmasına gətirib çıxarması gözlənilləndir.

Bundan əlavə digər sahələrin inkişafını təmin etmək üçün respublika bölgələrinin 2014-2018-ci illər üçün sosial-iqtisadi inkişafı üzrə dövlət proqramı və 2016-2020-ci illər üçün Strateji yol xəritəsi hazırlanmışdır. Bu proqramların hazırlanmasında da əsas məqsəd ölkə iqtisadiyyatının dayanıqlı və davamlı iqtisadi inkişafını, həmçinin iqtisadi təhlükəsizliyini təmin etməkdir.

### 3.2. Azərbaycan Respublikasında sosial iqtisadi təhlükəsizliyin təmin olunmasının dünya təcrübəsi

İqtisadi təhlükəsizlik günümüzdə ən çox müzakirə edilən mövzulardan biridir. İqtisadiyyatın təhlükəsizlikdə olması və ya iqtisadi təhlükəsizlik baxımından güclü olması, xüsusilə ani dəyişikliklərdən təsirlənən inkişaf etməkdə olan ölkələrin iqtisadi qeyri-sabitliyi üçün vacibdir. Dövlət qurumları iqtisadi təhlükəsizliyi əsasən əhalinin həyat səviyyəsi və rifah ilə əlaqələndirirlər.

Dissertasiyanın bu başlığı altında dünya ölkələrinin iqtisadi inkişaf və iqtisadi təhlükəsizlik baxımından keçdiyi yolları, siyasətləri gözdən keçirilib və Azərbaycan üçün həmin siyasətlərin uyğunluğu və keçərliliyi əla alınmışdır.

**Tayvan.** Coğrafi mövqeyi baxımından Tayvan ölkəmizdən fərqli olsa da siyasi baxımdan oxşar tarixi yol keçmişik. Belə ki, II dünyan müharibəsinin ardından Çin Tayvanı müstəmləkəsi halına salır. Lakin 1949-cu ildə Çində baş verən daxili

qarışıqlıq səbəbi ilə Tayvan öz müstəqilliyini əldə etmişdir. Daha sonra bir neçə dəfə Çinin bir neçə dəfə Tayvana hücumu olsa da, yalnız bir neçə ada ələ keçirə bilmişdir. Nəhayət hərbi təhlükəsizliyi təmin edən Tayvan sonrakı illərdə iqtisadi təhlükəsizliyini də bərpa edərək davamlı iqtisadi inkişafı əldə etməyə çalışmışdır.

1980-ci illlərin sonuna qədər Tayvanda əsasən daxili tələbatı ödəməyə istiqamətli istehsal həyata keçirilirdi. Əsasəndə istehlak mallarının təlabatını. Xüsusilə kənd təsərrüfatı sektorunu qorumağa yönəlmiş və xarici ticarətdə məhdudiyyətlər qoymuşdur. Bu şəkildə qoruyucu siyasət uzun dövrdə təsirli olmasa da qısa dövrdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün faydalıdır. Lakin ərazisinin kiçik olması səbəbi ilə Tayvanın kənd təsərrüfatı malları istehsalı kifayətli dərəcədə olmamışdır.

1990-cı illərin başlarında isə dünya ölkələrinin qloballaşmaya yönəlməsi nəticəsində Tayvanda xarici ticarətdə siyasətini dəyişdi. Artıq investisiya qoyuluşu baxımında Çin Tayvan üçün yenibir mərkəz olmuşdur. Bunun nəticəsi olaraq istehsal sektorunun ÜDM-dəki payı 1986-cı ildə 39.4 % olduğu halda 2006 -cı ildə 25.7% -ə qədər düşmüşdür. Eyni dövrdə xidmət sektorunun payı isə 43,7%-dən 68,6 %-ə yüksəlmişdir. İstehsal sektorunun ÜDM-dəki payının azalması qaçınılmaz olsa da GSMH'daki payının azalması kaçınılmaz olsa da texnologiyanın inkişafı ilə Tayvan bu məhsullar üçün toplu istehsal sahələri yaratmışdır.

**Cədvəl 6. Tayvan iqtisadiyyatının strukturu (2012)**

| **2012-ci ildə ÜDM mənbəyi** | **%** |
|---|---|
| Xidmət sektoru | 67,1 |
| Sənaye | 32,3 |
| Kənd təsərrüfatı | 1,4 |

**Mənbə :** Dünya bankı
**Link:** https://data.worldbank.org (20.04.2019)

İqtisadi təhlükəsizliklə bağlı ölkənin ən böyük problemi enerji mənbələrinin xaricdən əldə edilməsidir. Digər bir problem isə ölkənin xarici ticarətində Çinin böyük paya sahib olmasıdır. Lakin digər tərəfdən də Çinin iqtisadi cəhətdən qismən Tayvana bağlılığı vardır. Bütün bunlara baxmayaraq isə Tayvanı ilk öncə kənd təsərrüfatında yürütdüyü proteksionist siyasət, ardında isə investisiya qoyuluşları ilə

xidmət sektorunun inkişafı bir çox ölkə tərəfindən tanınmayan bu dövlətin iqtisadi gücünə güc qatmışdır.

Tayvanın adam başına düşən ÜDM-in 15 500 dollar, insani inkişaf indeksi sıralamasında 7-ci olması isə əhalinin rifah səviyyəsinin nə qədər yüksək olduğunu göstərir.

Tayvan ilə müqayisədə ölkəmiz daha az tarixi bir yol keçmişdir. Həmçinin Tayvanın təbii sərvətinin olmamasını da diqqətə almaq lazımdır. Tayvan ilə müqayisə müstəqilliyin ilk illərində kənd təsərrüfatı sahəsinə deyil, neft sektoruna yönəlmişik. Son 10 ildə isə kənd təsərrüfatına diqqət artmışdır. Tayvan nümunəsindən gördüyümüz kimi dəyişən iqtisadi şəraitdə artıq kənd təsərrüfatının ölkə inkişafında önəmi azalmışdır. Bu səbəbdən Azərbaycan iqtisadi gücünü artırmaq üçün xidmət və sənaye xüsusilə qeyri-neft sənayisinin inkişafı üçün tədbirlər görməlidir.

**Sinqapur.** Sinqapur tarix boyü ölkəmiz kimi müstəmləkə altında qalmışdır. 1965-ci ildə isə müstəqilliyini elan edən Sinqapur ölkənin milli təhlükəsizyinin təməli olan hərbi təhlükəsizliyini təmin etmiş oldu.

Ölkədə kənd təsərrüfatına yararlı torpaq sahəsi az olması səbəbi ilə kənd təsərrüfatı az inkişaf etmişdir. Ölkənin yalnız 1%-i kənd təsərrüfatı üçün yararlıdır.

Ölkə əlverişli coğrafi mövqeyi və dəniz ticarəti sayəsində 19-cu yüzillikdən etibarən ticarət mərkəzinə çevrilmişdir. Bu səbəbdən də müstəqillik qazandıqdan sonra da ölkənin “təbii sərvəti” olan bu üstünlükdən istifadə edərək iqtisadi təhlükəsizliyini qorumağa çalışmışdır. Buna görə ölkənin iqtisadi artım modelenin də ixracata dayalı artım olması təəccüblü deyil. Başda Çin və Hindistan üzərinə qurduğu ticarət sayəsində Sinqapur dünyanın ən işlək limanı olmuşdur.

Müstəqillik illərindən başlayaraq ölkə iqtisadiyyatının təhlükəsizliyinin təmini üçün sənaye və xidmət sektoruna yönəlmişdir. Lakin bu illərə qədər ölkənin əsas gəlirinin ticarət və xidmət sektorları olması buna maneə idi. Yəni ölkənin sənayeləşmə ənənəsi yox idi. Bu səbəbdən sənaeləşməni təmin etmək üçün Sinqapur liderləri xarici investorları ölkəyə cəlb etməyə çalışdılar. Bunun üçün isə əlverişli biznes mühiti yaratdılar. Bu mühiti yarada bilmək üçün isə ölkədə təhlükəsizlik

artırılmağa, yolsuzluq azaldılmağa çalışılmışdır. Həmçinin vergi sistemində də tənzimləmələr aparılmışdır. Bütün bunların nəticəsində isə müstəqilliyinin 7-ci ilində artıq ölkənin sənaye məhsulları istehsalının 25% də xarici investorların payı var idi. Bu investorlar içərisində isə ABŞ və Yaponiya böyük paya sahib idi. Xarici investisiya qoyuluşlarının artmasından sonra ölkə insan kapitalının inkişafına yönəldi. Bir çox texniki peşə məktəbləri quruldu. İxtisaslaşmanı artırmaq üçün informasiya texnologiyası, neft-kimya və elektronika sahələri üzrə beynəlxalq müəssisələrə ödəmə edildi.

1970-ci illərə qədər Sinqapur tekstil, geyim malları və təməl elektronik mallar ixrac edirdi. Daha sonrakı illər də isə insan kapitalına qoyulan investisiya öz bəhrəsini verir. Xüsusilə ölkə yüksək səviyyəli texnologiyası ilə seçilir. Araşdırma və inkişafa qoyulan böyük investisiyalar sayəsində Sinqapur sənayesində yüksək texnologiyaya dayanmış istehsal inkişaf etmişdir. Sinqapurun sənaye istehsalında 2011-ci ildə eloktronika malları(31,4%), kimya məhsulları(10,7%), tibb məhsulları(19,6%) xüsusi yer tutmuşdur.

Xidmət sektorundu isə 2000-ci ildən etibarən Sinqapurdakı firmalara xarici investisiya qoyuluşlarına yönəlmiş xüsusilə böyük layilər həyata keçirmişdir.

**Cədvəl 7. Sinqapurun 2003-2013 -cü illər üzrə iqtisadi göstəriciləri**

| İllər | ÜDM milyard | İqtisadi artım | Adam başı gəlir | İxracat | İdxalat | İnflyasiya |
|---|---|---|---|---|---|---|
| 2003 | 92,5 | 3,5 | 23.234 | 166,4 | 120,5 | 0,5 |
| 2004 | 109,6 | 9,0 | 27.394 | 202,4 | 149,7 | 1,3 |
| 2005 | 119,8 | 7,3 | 29.234 | 227,3 | 180,3 | 1,3 |
| 2006 | 136,6 | 8,2 | 33.235 | 250,6 | 200,4 | 0,8 |
| 2007 | 177,3 | 8,8 | 38.456 | 298,0 | 224,5 | 2,1 |
| 2008 | 189,4 | 1,5 | 36.346 | 320,2 | 240,5 | 6,6 |
| 2009 | 183,5 | -0,8 | 34.654 | 366,9 | 286,9 | 0,8 |
| 2010 | 222, | 14,8 | 44.235 | 395,3 | 301,3 | 2,5 |
| 2011 | 259,5 | 4,9 | 49.934 | 420,5 | 330,6 | 5,5 |
| 2012 | 276,3 | 1,3 | 47.245 | 444,2 | 350,3 | 4,6 |
| 2013 | 292,4 | 2,3 | 47.543 | 460,4 | 377,3 | 3,8 |

**Mənbə :** Dünya bankı
**Link:** https://data.worldbank.org (20.04.2019)

Ölkənin çoxlu adalardan ibarət olması onun dəniz ticarətinə müsbət təsir etmişdir. Sinqapur iqtisadiyyatının böyük bir hissəsi ticarətə bağlıdır və onun iqtisadiyyatının əsas təkanverici qüvvəsidir. Bu səbəbdən cədvəldən gördüyümüz kimi ixrac və idxalatın payı onun ÜDM-də əhəmiyyətli dərəcədə yer tutmuşdur. 2008-ci ilə qədər ölkənin ÜDM-iyüksək tempdə artmışdır. Lakin 2008-ci ildə baş verən qlobal maliyyə böhranı Sinqapura təsir etmişdir. Bunun ən böyük səbəbi də ölkə iqtisadiyyatının xarici ticarətlə birbaşa bağlı olmasıdır. Bu səbəbdən 2008-ci ildə inflyasiya dərəcəsi 6,6% olmuş, adam başına düşən ÜDM 36 346 dollara düşmüş və iqtisadi artım 8,8-dən 1,5-ə geriləmişdir. Bu baxımdan böhrandan ən çox təsirlənən ölkələrdən biri olmuşdur. Böhrandan çıxmaq üçün Sinqapur tarixində ilk dəfə olaraq bank ehtiyatlarından istifadə etmişdir. Bütün bunlara baxmayaraq ölkənin adam başına düşən ÜDM-in bu il üçün təxminən 55 000 dollar, alıcılıq qabiliyyəti paritetinin 0,847 və insani inkişaf indeksi(0,932) baxımından Sinqapurun 9-cu yerdə olması ölkənin iqtisadi gücü, rifah səviyyəsi və iqtisadi təhlükəsizliyindən xəbər verir. Nəticə olaraq qloballaşmadan sonra dəyişən iqtisadi şəraitə uyğunlaşan Sinqapur artıq müxtəlif göstəricilərdə ön pillələrdə olaraq iqtisadi təhlükəsizliyini təmin etmişdir.

Ölkəmizin Sinqapurla oxşar cəhəti təbii sərvətlərinin olması və uzun müddət müstəmləkə şəraitində olmasıdır. Sinqapur “təbii sərvəti” olan əlverişli coğrafi mövqe və ticarət təcrübəsindən istifadə edərək öncə iqtisadi təhlükəsizliyini təmin etdi. Daha sonra iqtisadi inkişaf yolunda doğru addım olaraq ölkə əldə etdiyi gəlirləri ölkənin iqtisadi inkişafı üçün texnologiya və insan kapitalının inkişafına yönəltdi. Başqa sözlə dəyişən iqtisadi şəraitə uyğunlaşaraq resurslarını doğru dəyərləndirdi və doğru istiqamətlərə investisiya qoyuluşları həyata keçirildi. Ölkəmiz isə uzun müddət təbii sərvəti olan neftdən dəstək alaraq iqtisadi təhlükəsizliyini təmin etməyə çalışdı. Lakin neftin qiymətlərindəki dəyişmə ölkə iqtisadiyyatının təhlükəsizliyi baxımından öz mənfi təsirini göstərdi. Əslində bu böhran qloballaşma zamanı iqtisadi təhlükəsizliyin təmin olunmasında ölkə iqtisadiyyatında bir sektorun böyük paya sahib olmasının mənfi cəhətini bizə göstərdi. Sinqapur misalında olduğu kimi Azərbaycan təbii sərvətindən əldə etdiyi gəliri xidmət və qeyri-neft sənayesinə

yönəldərək öz iqtisadi təhlükəsizliyini daha da gücləndirə və davamlı iqtisadi inkişafını təmin edə bilər. Bunun üçün isə əlverişli biznes mühitinə və investisiya qoyuluşlarına ehtiyac vardır.

**Macarıstan.** I dünya müharibəsi başa çatdıqdan sonra məğlub olan Avstriya-Macarıstan iperiyası bölündü. Nəticədə Macarıstanın hazırkı sərhədləri formalaşdır. 1989-cu ildə isə ölkə demokratik respublika elan olundu.

Bu ölkənin sahəsi 93 030 km$^2$, əhalisinin sayı isə təxminən 10 milyondur. Ölkə torpaqları əsasən düzənlik və məhsuldar sahələrdən ibarətdir. Torpaqların 63%-i kənd təsərrüfatı üçün yararlıdır. Buraya balıqçılıq və meşəçilik də əlavə edildikdə məhsuldar torpaqların sahəsi 83 faizə yüksəlir. Lakin bunlara baxmayaraq ölkə xammal və enerji resurslarından kasaddır.

Ölkənin daxili bazarı kiçikdir. Buna baxmayaraq ölkə iqtisadiyytatının böyüklüyü baxımından bölgə ölkələri arasında Polşa və Çexiyadan sonra üçüncü sıradadır. Macarıstan Avropaya ticarət və xarici investisiya yolu ilə sıx şəkildə bağlanmış mühüm sektorları ilə regiondakı ən açıq iqtisadiyyata sahib ölkədir. Macarıstan ixracatının ¾ - ü AB-i ölkələrini edilir. AB ölkələrinin güclü tələbi ölkə iqtisadiyyatı üzərində mühüm təsirə malikdir.

Bazar iqtisadiyyatına keçid ilə birlikdə Macarıstan xarici ticarətində tətbiq edilən liberal siyasətlər ölkənin xarici ticarət həcmində ve iqtisadi gücündə özünü göstərmişdir. Ölkə iqtisadiyyatının təhlükəsizliyinin təmini üçün dövlətin əsas məqsədlərindən biri davamlı iqtisadi inkişafı təmin etmək olmuşdur. Bunun üçün isə xarici investorları ölkəyə zəlb etməyə çalışmışdır.

Bibaşa xarici investisiyalar ölkənin istehsalının müasirləşməsinə və ixracatın birbaşa olaraq qərb ölkələrinə yönəlməsinə səbəb olmuşdur. Bu proses 1990-cı illərin ortalarında tətbiq edilən aqresiv özəlləşdirmə siyasəti ilə başlamışdır. Nəqliyyat, bankçılıq, emal sektorunun böyük bir hissəsi xarici investorun əlindədir. Özəl sektorun ÜDM-dəki payı 80%-dir və bu bölgə ölkələri içərisində də ən yüksək göstəricidir. Son illərdə özəlləşdirmə ilə birlikdə, çöl sahələrində yerləşən kiçik və böyük fabriklərə istiqamətlənən xarici investisiya da özəl sektorun ÜDM-dəki payını artırmışdır.

Macarıstan xarici ticarətinin böyük hissəsini ölkədə istehsalı həyata keçirən transmillişirkətlər tərəfindən reallaşır. Bu da ölkənin xarici ticarət həcminin beynəlxaq iqtisadiyyatda baş verən dəyişikliklərdən daha tez təsirlənməsinə səbəb olmuşdur. Bu səbəbdən 2008 maliyyə böhranı Macarıstandan yan keçməmişdir. Ölkə iqtisadiyyatı 2009-cu ildə 8,9% kiçilmişdir. 2010 və 2011-ci ildə 1%-dən artıq iqtisadi artım əldə olunsada, hələ ölkə iqtisadiyyatı gözlənilən səviyyədə canlanmamışdır. Ölkə iqtisadiyyatında baş verən daralmanın digər bir səbəbi isə tətbiq edilən daraldıcı monetar və fiskal siyasət olmuşdur.

2011-ci ilin makroiqtisadi göstəricilərinə baxıldıqda ÜDM 140,3 milyard dollar olmuşdur. ÜDM-dəki payına baxdıqda isəixracatın payının böyük olduğu görünür. Əsas ixracat malları isə emal sektorunun məhsullarıdır. Bu malların içərisində isə avadanlıq və nəqliyyat vasitələri xüsusilə seçilirlər.

Hal-hazırda insani inkişaf indeksi baxımından ölkə 45-ci yerdədir. Macarıstan demokratik respublika elan olunduğu ildən 2010-cu ilə qədər insani inkişaf indeksinin dinamikasına baxdıqda(qrafik 7) böyük yol qət etmişdir. Həmçinin bu ölkənin iqtisadi inkişaf və iqtisadi təhlükəsizlik baxımından əldə etdiyi uğurun göstəricisidir.

**Qrafik 7. İnsani inkişaf indeksinin dinamikası(Macarıstan)**




**Mənbə:** İnsan inkişafı indeksi
**Link:** http://hdr.undp.org (20.05.2019)

Alıcılıq qabiliyyəti pariteti isə böhran(2008) dövründə gerilәsə də ümumən bu baxımdanda müsbət irəliləmə qeydə alınmışdır.

Nəticə olaraq ölkə bazar iqtisadiyyatına keçidikdən sonra iqtisadi təhlükəsizliyini və davamlı iqtisadi inkişafı təmin etmək üçün fəaliyyətlər görmüşdür. Bu fəaliyyətlərin əsas istiqamətini 2 yerə bölə bilərik. Bunlardan biri biznes mühitinin yaxşılaşdırılması, digəri isə aqressiv şəkildə özəlləşdirmə olmuşdur. Bütün bunların səbəbi olaraq, ölkəyə birbaşa xarici investisiya axını olmuşdur. Birbaşa xarici investisiyanın dəstəyi ilə ölkə iqtisadi gücünü və ixracatını artırmışdır. İxracat isə Macarıstanın davamlı iqtisadi inkişafının motoru kimi çıxış edir.

Biznes mühitinin yaxşılaşdırılması üçün ölkədə monetar islahatlar aparılmışdır. Bu islahatları aşağıdakı kimi qruplaşdıra bilərik:

- Faiz dərəcələrinin azaldılması
- KOS-lara verilən kreditlərin artırılması
- Xarici valyutada olan kreditlərin milli valyutaya keçirilməsi

Macarıstanın iqtisadi baxımından ölkəmizə yaxınlığını nəzərə aldıqda burada tətbiq edilən iqtisadi təhlükəsizlik siyasətləri ölkəmiz üçün də tətbiqini mümkün edir. Ölkəmizdə KOS-lara kreditlərin verilməsi tətbiq edilir. Lakin bank faiz dərəcələri yüksəkdir. Buna görə Mərkəzi bankın faiz dərəcələrini aşağı salacaq monetar siyasəti biznes mühitinin yaxşılaşmasına müsbət təsir göstərər. Xarici valyutada olan kreditlərdən isə əhali yaxın keçmişdə baş verən devalvasiyadan zərər çəkmişdir. Buna görə də xarici valyutada olan kreditlərində azaldılmasının iqtisadi təhlükəsizlik baxımından müsbət təsiri olacaqdır.

**Makedoniya.** 1992-ci ildə müstəqillik qazanan Makedoniya sırası ilə Roma, Bizans və Osmanlı imperiyasının müstəmləkəsi olmuşdur. Strateji əlverişli şəraitdə yerləşməsi tarix boyu ölkənin milli təhlükəsizliyinin təhdidlər altında olmağına səbəb olmuşdur.

Ölkənin bir tərəfdən dənizə çıxışının olmaması, digər tərəfdən iqtisadiyyatının ixracatdan asılı olmağı, Makedoniyanın beynəlxalq iqtisadiyyatda baş verən dəyişikliklərdən asılı olmasına səbəb olmuşdur. Bu halın müsbət tərəfləri iləbirlikdə mənfi tərəfləri də vardır. İxracatın yüksək olmağı ölkə iqtisadiyyatının inkişafını

göstərir. Digər tərəfdən isə Makedoniya son 10 ildə dünya iqtisadiyyatında baş verən iqtisadi böhranlardan təsirlənmişdir. Bu da başqa sözlə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün əsas problemdir.

Xidmət sektoru Makedoniya iqtisadiyyatının 60%-ni əhatə edir və xüsusilə ticarət, nəqliyyat və telekommunikasiya sahələrinə diqqət yetirilmişdir. Makedoniyanın planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid prosesində sənayenin iqtisadiyyat içərisindəki payı ciddi şəkildə azalmış və 1990-cı illərin əvvəllərində 45% olduğu halda 2006-ci ildə 31%-ə qədər aşağı düşmüşdür. Sanayedə ağırlıq dəmir-polad, tekstil ve metallurgiyadır. Kənd təsərrüfatı sektorunun isə ÜDM-dəki payı 14%-dir.

İqtisadiyyatının sərbəstliyi baxımından 180 ölkə arasından 31-ci yerdədir. Makedoniya biznes fəaliyyətinə başlamağın asanlığı baxımından isə 190 ölkə arasından 11-ci yerdədir ki, bu da ölkədə biznes mühitinin əlverişli olduğunu göstərir.

Ölkənin son iki üzrə Beynəlcaq Valyuta Fondunun yayımladığı makroiqtisadi göstəricilərinə baxdıqda iqtisadi artımda irəliləyiş olsa da, inflyasiya və işsizlik dərəcəsinin yüksək olması görünür(cədvəl 8).

**Cədvəl 8. Makedoniyanın makroiqtisadi göstəriciləri**

| | **2017** | **2018** |
|---|---|---|
| **ÜDM(cari qiymət ilə, milyard)** | 11,3 | 12,7 |
| **İqtisadi artım (%)** | 0,2 | 2,7 |
| **Adam başına düşən ÜDM(dollar)** | 5.448 | 6.100 |
| **İstehlakçı qiymət indeksi(%)** | 1,35 | 1,46 |
| **Əhali(milyon)** | 2,075 | 2,077 |
| **İşsizlik dərəcəsi(%)** | 22,4 | 19,4 |

**Mənbə :** BVF
**Link:** https://www.imf.org (18.05.2019)

Son dövrlərdə baş verən siyasi qeyri-sabitliyə baxmayaraq Makedoniyanın tətbiq etdiyi iqtisadi islahatlar proqramında müsbət irəliləmə qeydə alınmışdır. Bununla birliktdə ölkənin iqtisadi artımı hələ də istənilən səviyyəyə çatmamış və iqtisadiyyata daxil olan birbaşa xarici investisiyaların kifayət qədər olmamasını qeyt etməliyik. Bu səbəbdən Makedoniyada investisiya mühütinin yaxşılaşdırılmasına və

özəl sektordan güc alan iqtisadi artıma meyilin təmin edilməsinə ehtiyac olduğunu söyləmək mümkündür.

Ölkənin iqtisadi təhlükəsizliyi baxımından hələ də istənilən səviyyəyə çatılmamışdır. Lakin dövlət bunun təmin edilməsi üçün makroiqtisadi siyasətlər və islahatlar həyata keçirir. Bir müddətdir tətbiq edilən iqtisadi islahat programı və aşağı inflyasiya siyasəti sayəsində Makedoniyanın makroiqtisadi göstəricilərində müsbət dəyişikliklərin qeydə alınması ilə müşahidə olmuşdur. Dövlətin iqtisadi təhlükəsizliyi təmin etmək üçün prioriteti isə xarici investorları ölkəy çəkmək və özəl sektora ağırlıq verməkdir. Dövlətin tətbiq etdiyi iqtisadi islahatlarında elə əsas məqsədi xarici investorları cəlb edə bilmək üçün əlverişli biznes mühitinin yaradılmasıdır.

**Ukraniya.** SSRİ-nin süqutunun ardından ölkəmiz kimi Ukraniyada 1991-ci ildə öz müstəqilliyini elan etmişdir. Müstəqillik əldə etdikdən sonra yeni konstitutsiya qəbul edilmiş və parlamentli idarəetmə sisteminə keçilmişdir.

Ukraniya geniş və məhsuldar torpaqlara, zəngin mədən və kömür resurslarına, SSRİ-dən qalan güclü sənaye strukturuna, yaxşı təhsil almış işçi qüvvəsinə sahibdir. Ölkənin bu potensialına baxmayaraq sosialist sistemdən bazar iqtisadiyyatına keçid prosesində digər post sovet ölkələri kimi problemlər ilə qarşılaşmışdır. Ölkənin həm hərbi, həm də iqtisadi təhlükəsizli tam olaraq təmin olunmamışdı. Ukraniya iqtisadi islahatları sürətli şəkildə tətbiq edə bilməmişdir. Lakin 1999-cu ildən başlayaraq sonrakı dövrlərdə iqtisadi islahatlar sürətləndirilmiş və nəticə olaraq ölkə iqtisadiyyatının sabitliyi təmin edilmişdir. Ölkədə ənənəvi sahələrdən başqa digər sahələrdə də islahatlar aparılmışdır. Yəni struktur dəyişikliyi üçün fəaliyyətlər görülmüşdür. Lakin ölkənin milli təhlükəsizliyinin təmin edilməsində olan problemlər səbəbi ilə iş dünyası və siyasi baxışlar arasında fikir ayrılıqları olmuşdur. Nəticədə bu proses ləng olaraq davam etmişdir.

Sovet iqtisadi sisteminin çöküşündən sonra keçid prosesində lazımlı iqtisadi islahatların tam mənada tətbiq edilməməsi səbəbi ilə 90-cı illərin əvvəllərind hiperinflyasiya və ÜDM-in 9%-i qədər büdcə kəsri meydana gəlmişdir. Milli valyuta məzənnəsi sürətli bir şəkildə dəyər itirmişdir. 1996-97-ci illərdə tətbiq edillən

monetar siyasət vasitəsi ilə pul-kredit sistemində sabitlik təmin edilmiş və inflyasiya dərəcəsi aşağı salınmışdır. 1998-ci ildə tətbiqə qoyulan iqtisadi proqramda is 1999-cu il prezident seçkiləri səbəbi ilə müvəffəqiyyət əldə edilməmişdir. Ölkədən xarici valyutanın çıxışını əngəlləyən və xarici ticarəti nəzarət altına almağa istiqamətlənmiş tədbirlərin demək olar hamısı 1999-cu ildə qaldırılmışdır. 1998-99 dövründə yaşanan regional böhran, xüsusilə metal və kimya sektorlarında Rusiyadan və Asiya ölkələrindən gələn tələbin artması nəticəsində real sektoron rahatlaması ilə keçilmişdir. 1999-cu ildə Prezident Viktor Yuşenko liderliyində ölkədə iqtisadi islahatlar tətbiqə qoyulmuş, sonrakı dövrdə də bu islahatlar davam etdirilmişdir. sürdürülmüştür. Xüsusilə vergi sahəsində tətbiq edilən islahatlar sayəsində büdcə 2000-ci illərdən etibarən müsbət saldo verməyə başlamışdır. 2000ci ildə ÜDM-də müstəqillikdən bu yana ilk dəfə artış qeydə alınmış və bu artış xüsusilə sənaye, kənd təsərrüfatı, ticarət və qida sektorlarındakı artından qaynaqlanmışdır.

2005-ci ildən sonra isə ölkə iqtisadiyyatında ümumən canlanma müşahidə olunmuşdur.

**Cədvəl 9. Ukraniyanın makroiqtisadi göstəriciləri**

| | 2005. | 2006. | 2007. | 2008. | 2009. | 2010. | 2011. |
|---|---|---|---|---|---|---|---|
| ÜDM(milyard) | 86,1 | 107,8 | 142,7 | 180 | 117,4 | 138 | 164,3 |
| Real iqtisadi artım | 2,3 | 7,4 | 7,9 | 2,4 | -16,1 | 4,1 | 5,3 |
| Adam başına düşən ÜDM(dollar) | 5.625 | 6.270 | 7.000 | 7.356 | 6.337 | 6.700 | 7.200 |
| İnflyasiya dərəcəsi(%) | 10,3 | 11,6 | 16,6 | 22,3 | 12,3 | 9,1 | 4,6 |
| İşsizlik dərəcəsi(%) | 7,2 | 6,8 | 6,4 | 6,4 | 9,6 | 8,8 | 8,5 |
| İxracat | 35 | 38,9 | 49,8 | 67,7 | 40,4 | 51,4 | 68,4 |
| İdxalat | 36,2 | 44,1 | 60,4 | 83,8 | 45 | 60,7 | 82,6 |
| Beynəlxalq valyuta ehtiyatı | 19,4 | 22,4 | 32,5 | 31,5 | 26,5 | 34,6 | 31,8 |
| Cari əməliyyatlar hesabı | 2,6 | -1,6 | -5,3 | -12,8 | -1,8 | -2,9 | - 9 |
| Xarici borc | 39,6 | 54,5 | 80 | 101,7 | 103,4 | 117,3 | 126,2 |

**Mənbə :** Dünya bankı
**Link:** https://data.worldbank.org (20.04.2019)

Dünya iqtisadiyyatında polad qiymətlərinin artması və daxili bazarda istehlakın artması ilə əlaqədar olaraq 2005-ci ildə 2,7% olan iqtisadi artım, 2006-cı ildə 7,3%-ə yüksəlmişdir. 2007-ci ildə qeydə alınan 7,9%-lik iqtisadi artımın ardından 2008-ci ildə də iqtisadiyyatda 2,4% artım müşahidə edilmişdir. Ancaq,

həmin illərdə yaşanan maliyyə böhranı Ükraniyadan da yan keçəməmişdir. Ölkə iqtisadiyyatının dəmir polad məhsullarının ixracatına dayanması Ukraniya iqtisadiyyatında həmin sektorda problemlərin ortaya çıxmasına səbəb olmuşdur. Bu problemdə ümumi iqtisadiyyatda da öz təsirini dərhal hiss etdirmişdir. Xüsusilə təbii qaz istifadə edərək çalışan dəmir polad sektorunun təbii qaz qiymətlərinin artmasından da təsrilənmişdir. Dünya bankının hesabatına görə, 2009-cu ildə Ukraniya iqtisadiyyatı 16,1% kimi böyük bir ölçüdə kiçilmişdir. Bu geriləmənin də səbəbi olaraq, xarici bazarlarda tələbin daralması, ev təsərrüfatlarının gəlirlərində ciddi düşüşlər səbəbi ilə daxili tələbdə ortaya çıxan daralma və investisiya həcmində olan azalma sayılır. 2010-cu ildə iqtisadiyyatda 4,2% iqtisadi artım yaşansa da, əvvəlki ildəki rekord geriləmənin ardından bu ədədlər çok ciddi bir iqtisadi irəliləmə mənasına gəlmədiyini söyləyə bilərik. 2011-ci ildə isə ölkə iqtisadiyyatında 5,2% iqtisadi artım qeydə alınmışdır.

Nəticə olaraq Ukraniya ölkəmiz kimi müstəqillik qazandıqdan sonra bazar iqtisadiyyatına keçid etmiş və bu prosesdə iqtisadi təhlükəsizlik baxımından bir sıra problemlər ilə üzləşmişdir. Bu problemlərin həlli üçün isə əsasən dövlət iqtisadi islahatlar apararaq struktur dəyişikliyinə çalışılmışdır. Lakin bu prosesin ləng olması səbəbi ilə ölkə iqtisadiyyatı ənənəvi sektorlardan asılılığı tam olaraq azad edilə bilməmişdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Hal-hazırda qlobaşmanın, elmi texniki tərəqqinin və bir sıra amillərin gətirdiyi risklər iqtisadiyyatın təhlükəsizliyini ölkələrin prioritet məqsədlərindən birinə çevirmişdir. Dünya iqtisadiyyatının tarixi keçmişi göstərir ki, ölkələr öz daxillərind siyasi olaraq sabitliyin təmin etdikləri zaman belə iqtisadi sahələrlə əlaqədar xaricdən gələn təhlükələr azalmış olmur. Çünki beynəlxaq iqtisadi əlaqələr, xarici maliyyə bazarları, dünya ticarəti, beynəlxalq müəssisələrin fəaliyyətləri şaxələndikcə, informasiya və rabitə texnologiyaları inkişaf etdikcə ölkə iqtisadiyyatının təhlükəsizliyinin təmin olunması problemləri də mürəkkəbləşir. İqtisadiyyatın təhlükəsizliyinin təmin olunması milli təhlükəsizliyin tərkib hissəsidir. Ölkənin milli təhlükəsizliyinin təmini üçün iqtisadi təhlükəsizlik də təmin olunmalıdır. Dövlətin müstəqilliyinin təminin vacib elementlərindən biri ölkə iqtisadiyyatının təhlükəsizliyinin təmin olunmasıdır. Milli İqtisadiyyatın təhlükəsizliyini təmin edə bilməyən dövlət müstəqil bir dövlət kimi tanına bilməz. İqtisadi təhlükəsizliyi təmin olunduğu şəraitdə ölkə davamlı və keyfiyyətli inkişafa, əhalinin rifahına, sosial-iqtisadi inkişafına çata bilər. Çünki beynəlxalq iqtisadiyyatda reallaşan, və olmağı gözlənilən proseslərin analizindən əldə olunan mühüm nəticədən biri də, xarici dövlətlər, transmilli şirkətlər, xarici investorlar digər bir ölkəyə öz mənafeyini güdmədən yardım etmir. Başqa sözlə dövlətlərin dostu olmur. Bütün yardımların digər tərəflərin maraqları dayanır. Bu səbəbdən də bütün xarici yardımların və ya dəstəyin ölkənin mənafeləri, iqtisadiyyatın təhlükəsizliyi nöqteyi nəzərdən qiymətləndirilməsi mühüm və əhəmiyyətlidir.

Bütün ölkələr üçün keçid dövrünün başlanğıc mərhələlərində iqtisadi strukturunun pozulması, sosial sahədə vəziyyətin kəskinləşməsi, əhalinin həyat səviyyəsinin pisləşməsi, istehsal sahələrinin tənəzzülü, dövlətin daxilində və xaricində iqtisadi münasibətlərin korlanması, işsizlik və inflyasiya səviyyəsinin yüksəlməsi kimi bir sıra hallar xarakterikdir. İlk illərdə aparılan siyasət nəticəsində isə dövlətin iqtisadi sferada rolu azalmışdır. Bu da yenicə müstəqil olmuş dövlət üçün iqtisadi təhlükəsizliyin aşağı düşməsinə səbəb olmuşdur. Daha sonrakı illərdə

dövlətin apardığı siyasətin dəyişməsi özünü iqtisadi artımda, iqtisadi inkişafda, alıcılıq qabiliyyəti paritetində, insani inkişaf indeksində özünü müsbət tərəfdən göstərmişdir. Dövlətin apardığı siyasəti isə dövlət proqramları, sərəncamlar, qəbul edilmiş və tənzimlənmiş qanunlar nümayiş etdirir. Bunlara misal olaraq müxtəlif illər üçün hazırlanmış bölgələrin iqtisadi inkişaf proqramlarını, strateji yol xəritəsinin hazırlanmasını, kiçik və orta sahibkarlara(KOS) təklif edilən kreditləri, vergilərdə olan tənzimləmələri, sahibkarlara dəstək olaraq subsidiyaların verilməsini və bir sıra tədbirləri göstərmək  mümkündür.

Hal-hazırda ölkəmizin milli mənafeyi regionlarda son əmtəə və xidmətlər istehsal edə biləcək yüngül və yeyinti sənaye firmaların qurulmasını tələb edir. Belə yanaşma bölgələrin sosial-iqtisadi problemlərini həll etməkdə və daxili bazarı xarici təhdidlərdən xilas etməkdə faydalı olar. Başqa sözlə bunun vasitəsi ilə daxili bazarın tələbatı xaricdən edilən idxal ilə deyil, yerli məhsul istehsalı vasitəsi ilə ödənmiş olar. Bu səbəbdən ölkəmiz üçün seçilə biləcək bir doğru investisiya siyasəti də, investisiyaların istehlak məhsulları istehsaledə biləcək sahələrə yönəltməkdir. Yəni aqrar sahəyə investisiya qoyuluşlarına tələbat vardır. Bunun üçün isə dövlət tədbirləri görülməlidir ki,  Azərbaycan dövlətinin müasir mərhələdə apardığı dövlət siyasətləri də bu tədbirlər ilə uyğunlaşır.

Ümümən dissertasiyada ələ alınmış iqtisadi təhlükəsizlik və iqtisadi inkişaf göstəricilərinə əsasən deyə bilərik ki, ölkəmizdə getdikcə iqtisadi təhlükəsizlik baxımından münbit şərait yaranır. Bunun təsiri ilə isə iqtisadi inkişaf və iqtisadi artımda əsasən irəliləyiş müşahidə edilmişdir. Lakin neft sektorunun payının ölkə ÜDM payında hələ də böyük nisbətə sahib olması ölkənin iqtisadi təhlükəsizliyi baxımından mənfi haldır. Respublikamızın iqtisadi təhlükəsizliyini artırmaq üçün digər sektorlarda effektiv və davamlı inkişaf əldə etməldir. Bunun üçün isə aşağıdakıları təklif edərdim:

- Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılmasına ehtiyac vardır. Bunun üçün isə vergi sisteminin daha da təkmilləşdirilməsinə və haqsız rəqabət hallarının minimuma endirilməsinə çalışmaq lazımdır

•Qeyri-neft sənayesinə diqqətin yönəldilməsi ölkənin həm iqtisadi təhlükəsizliyini həm də iqtisadi inkişafını daha da gücləndirər və davamlı olmasını təmin edə bilər.

•Turizm sahəsi üzrə Azərbaycanın mövcud potensialından istifadə edilməlidir. Hər nə qədər Ümumdünya Ticarət Təşkilatı(ÜTT) subsidiyaların azaldılmasının tərəfdarı olsa da, mövcud şəraitdə qeyri-neft və turizm sahəsinin inkişafı üçün sahibkarların dövlət dəstəyinə ehtiyacı vardır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində


1. Bərxudarov M. və Məmmədov N., "İqtisadi Təhlükəsizlik", Bakı:2006
2. Eyvazov E. "Milli iqtisadiyyatın təhlükəsizlik sisteminin formalaşması problemləri" Naxçıvan: 2013, s 154
3. Əhmədov M.A. "Qloballaşma və milli iqtisadiyyatın formalaşması", Bakı:2003
4. Əhmədov M.A, Qafarov K., Allahverdiyev H.B "Milli İqtisadiyyatın Dövlət tənzimlənməsi" Bakı:2006
5. Əliyev R. "İqtisadi təhlükəsizliyin təmin olunmasında, pul kredit sisteminin rolu onun təkmilləşdirilməsi istiqamətləri" Bakı 2010
6. Həsənov Ə. "Azərbaycan Respublikasının Milli İnkişafı və Təhlükəsizliyi" Bakı:2016
7. Məmmədov N. "Ölkənin iqtisadi təhlükəsizliyi" Bakı: 2009.
8. Məmmədov R. "Regional iqtisadi təhlükəsizliyin təmin olunması istiqamətləri" Bakı: 2012
9. Nəcəfov Z. "Azərbaycanın milli təhlükəsizlik problemi, nəzəri məsələlər". Bakı:1998
10. Piriyev A. "Siyasi strategiya və milli təhlükəsizlik" Bakı:2008
11. Senqeçov V.K. "İqtisadi təhlükəsizlik, geosiyasət, qloballaşma, özünü qoruma və inkişaf" Bakı:2008
12. Vəliyev P.A, "Dövlətin iqtisadi təhlükəsizlik məsələləri" Bakı:2016.
13. Vəliyev P.A, "İnvestisiya Fəallığının İqtisadi Təhlükəsizliyə Təsir İstiqamətləri". Bakı 2010
14. Vəliyev P.A. "İqtisadi təhlükəsizliyin mahiyyəti və milli təhlükəsizliyin təmin olunmasında onun rolu", Bakı: 2010

## İnternet resursları


**1.** https://www.stat.gov.az

**2.** https://www.cbar.az

**3.** https://www.economy.gov.az

**4.** http://www.hdr.undp.org

**5.** http://www.worldbank.org

**6.** https://www.imf.org

## Cədvəllərin siyahısı

**Cədvəl 1.** İqtisadiyyatın ayrı ayrı sahələrinin inkişaf dinamikası (2014-2017) ..... 18
**Cədvəl 2.** Neft və qeyri-neft sektorunun ÜDM tərkibindəki payı, milyon manatla (2010-2016) ..... 18
**Cədvəl 3.** Sosial xərclərin tərkibi və əsas istiqamətləri ..... 38
**Cədvəl 4.** Neft-qaz və qeyri-neft sektorunun 2005-2008 illəri üzrə ÜDM-dəki payı ..... 43
**Cədvəl 5.** Neft-qaz və qeyri-neft sektorunun 2009-2018 illəri üzrə ÜDM-dəki payı ..... 43
**Cədvəl 6.** Tayvan iqtisadiyyatının strukturu (2012) ..... 51
**Cədvəl 7.** Sinqapurun 2003-2013 -cü illər üzrə iqtisadi göstəriciləri ..... 53
**Cədvəl 8.** Makedoniyanın makroiqtisadi göstəriciləri ..... 58
**Cədvəl 9.** Ukraniyanın makroiqtisadi göstəriciləri ..... 60

## Şəkillərin siyahısı

**Şəkil 1.** İqtisadi təhlükəsizlik sistemi və onun blokları ..... 15
**Şəkil 2.** Pul kredit sisteminin təhlükəsizliyinin formalaşması və ona təsir edən amillər ..... 30
**Şəkil 3.** İqtisadi təhlükəsizlik göstəricilərinin təsnifatı ..... 33
**Şəkil 4.** Ölkə iqtisadiyyatının strukturu ..... 42

## Qrafiklərin siyahısı

**Qrafik 1.**Əsas makroiqtisadi göstəricilər (2000-2008) ..... 17
**Qrafik 2.** Dövlət büdcəsinin artım dinamikası (mln manat) (2004-2009) ..... 17
**Qrafik 3.** İnsan inkişafı indeksi ..... 35
**Qrafik 4.** Azərbaycan üçün alıcılıq qabiliyyəti paritetinin tempi ..... 35
**Qrafik 5.** 2007-2018-ci İllər üzrə adambaşına düşən ÜDM ..... 36
**Qrafik 6.** 2017 və 2018 – ci illər üçün sənayedə ümumi buraxılışın bölgüsü ..... 44
**Qrafik 7.** İnsani inkişaf indeksinin dinamikası(Macarıstan) ..... 56

## Diaqramların siyahısı

**Diaqram 1.** ÜDM cəm (1995-2006) ........................................................................ 26

**Diaqram 2.** ÜDM, adambaşı (1995-2006) ............................................................... 26